

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qarabağ və Şərqi Zəngəzur dirçəlir, Böyük Qayıdış sürətlənir



6

SƏS

№ 142 (6825)

11 avqust 2023-cü il.
Qiymәti 60 qәpik

# Özbəkistan:
## İstiqamət Azərbaycandır



3

# Çin-Rusiya:
## Ukrayna haqqında nə düşünülür?



4

### Ermənipərəst Qərbin Azərbaycana qarşı İNFORMASİYA MÜHARİBƏSİ



8

### İngiltərə dağılsın ki, orada Cəmil Həsənli müəllimlik edir



11

### Bütün xəstəliklərin təməli - yod çatışmazlığı



12



### Aliment alan şəxs sosial yardım ala bilər?

16

### "Cinayətkarlar cəzalandırılmadıqca ermәni təcavüzkarları susan deyil"



9

# "Dostluq münasibətlərimiz uğurla inkişaf edir"

## Prezident İlham Əliyev Rusiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Prezident İlham Əliyev avqustun 10-da Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.**

Söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirildi, siyasi, iqtisadi-ticari, energetika, nəqliyyat, humanitar sahələrdə, regional təhlükəsizliklə bağlı məsələlərdə fəal qarşılıqlı fəaliyyətin həyata keçirildiyi qeyd olundu.

Həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın olduğu vurğulandı, dövlət başçıları arasında təmasların əlaqələrimizin genişlənməsinə verdiyi töhfə bildirildi, ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.



Görüşdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti barədə danışıldı. Energetika və nəqliyyat sahələrində həyata keçirilən layihələrin, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin regional inkişaf üçün əhəmiyyəti vurğulandı.

# "Prezident İlham Əliyev "Euronews"a müsahibəsində Azərbaycanın sülh təşəbbüskarı olduğunu növbəti dəfə bəyan etdi"

**Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində qalib ölkə olan Azərbaycanın sülh təşəbbüskarı olduğunu növbəti dəfə bəyan etdi. Ölkəmiz Cənubi Qafqazda sülhün möhkəmlənməsini və dövlətlərin bir-birinə ərazi iddialarının olmamasını istəyir. Əlbəttə ki, bu, gələcəyə baxışda rasional və adekvat qiymətləndirmədir. Bu gün biz bunun əksinə olaraq görürük ki, erməni diasporu və kilsəsi, revanşist qüvvələr boş xəyallarla yaşayır, ölkəmizə qarşı bədnam bəyanatlar verir. Buna baxmayaraq, Azərbaycan sülh təşəbbüsündən çıxış edir.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov söyləyib.

Politoloq qeyd edib ki, ermənilərin son təxribatları Azərbaycan torpaqlarına iddia etməyin ağılsızlıq olduğunu onlara göstərdi. Ermənistan dövlətinin destruktiv mövqeyinə rəğmən, dövlətimiz öz prinsipial mövqeyindən geri çəkilməyəcək. Müsahibədə Prezident İlham Əliyevin Laçın yolu ilə bağlı qeydləri bir daha təsdiq etdi ki, ermənilərin yoldan qanunsuz məqsədlər üçün istifadəsinə göz yumulmayacaq və bu qəbulolunmazdır. Bu səbəbdən də "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qoyulması hüquqi cəhətdən bütün qanunlara uyğundur.

"Qeyd olunanlarla bərabər, dövlətimizin başçısı Qarabağ ermənilərinə də mesajlar göndərdi ki, onlar Azərbaycan vətəndaşlığını qəbul etmək istəyirlərsə, reinteqrasiya olunaraq ölkəmizdə digər etnik qruplar kimi yaşamalıdırlar. Əlbəttə ki, onların hüquqlarını və təhlükəsizliyini Azərbaycan təmin edəcək, yox əgər kimsə burada yaşamaq istəmirsə, ölkəmizi tərk edə bilər. Bundan əlavə, Ermənistan ermənilərinə verilən mesajlarda da çox vacib idi. Bunlara Qərbi azərbaycanlıların qayıdışından tutmuş, sərhədlərin delimitasiya və demarkasiyasına qədər çox həssas və vacib addımların atılması da daxildir. Eyni zamanda, Bakı ilə İrəvan arasında gələcəkdə sülh müqaviləsinin imzalanması davamlı münasibətlər üçün önəmlidir. Yaxın aylar ərzində Ermənistanın baş naziri Nikol Paşinyanın vədlərini yerinə yetirərək sülh müqaviləsinə imza atması da Azərbaycanın gözləntiləri içərisindədir. Son zamanlar müşahidə edirik ki, bölgə ətrafında geosiyasi mübarizə gedir və müxtəlif beynəlxalq qurumlarda fəallıq artmaqdadır. Azərbaycan üçün sülh müqaviləsinin harada imzalanmasının və kimin vasitəçiliyi ilə olmasının heç bir önəmi yoxdur", - deyə Z.Məmmədov vurğulayıb.



< Editions

Le Monde • 4 sur 28

ENTRETIEN

Diplomate de carrière, ambassadeur en France de 2010 à 2017, Elchin Amirbayov, âgé de 51 ans, est le représentant du président de la République d'Azerbaïdjan, Ilham Aliev pour des missions spéciales. Chargé des négociations concernant l'enclave disputée du Haut-Karabakh, peuplée en majorité d'Arméniens, mais située sur le territoire de l'Azerbaïdjan, il évoque la situation tendue pour l'accès à celle-ci.

**Le corridor de Latchine, seul lien entre l'Arménie et le Haut-Karabakh, est coupé depuis sept mois par des barrages installés par l'Azerbaïdjan. Plus rien ne passe depuis le 15 juin, d'après le Comité international de la Croix-Rouge [CICR]. Les civils arméniens du Karabakh vivent dans des conditions de plus en plus précaires. Qu'est-ce qui justifie de traiter ainsi 120 000 personnes, pour l'essentiel des civils ?**

Commençons par le contexte. La route de Latchine est inscrite dans la déclaration trilatérale *[accord de cessez-le-feu]*, signée le 10 novembre 2020 par les dirigeants de l'Arménie, de l'Azerbaïdjan et de la Russie, comme devant être utilisée à des fins humanitaires, en tant que lien important entre l'Arménie et la région du Karabakh, en Azerbaïdjan. Malheureusement, depuis deux ans et demi, on constate l'utilisation abusive de cette route par l'Arménie, qui fait entrer illégalement ses citoyens sur le territoire azerbaïdjanais à des fins de rotation des forces armées arméniennes illégales. Ainsi que pour transporter des armes vers le Karabakh et des minerais vers l'Arménie. Le chiffre de 120 000 personnes est largement exagéré. D'après nos estimations, il n'y a que 50 000 Arméniens aujourd'hui dans le Karabakh, dont 10 000 Arméniens armés.

**Considérez-vous ces militaires comme des citoyens azerbaïdjanais ?**

Non, la majorité de ces gens armés appartient aux forces armées russe. C'est pourquoi l'Azerbaïdjan a été obligé de créer, le 23 avril, un poste de contrôle à Latchine. C'est une décision conforme au droit international, car il s'agit d'une frontière entre les deux Etats. Mais, le 15 juin, il y a eu une provocation arménienne. Un garde-frontière azerbaïdjanais a été grièvement blessé par un tir venant du territoire arménien, et la libre circulation a été suspendue pendant neuf jours pour mener l'enquête, puis la route a été réouverte, surtout pour les évacuations médicales. Nous comprenons parfaitement qu'il faut répondre rapidement à tous les besoins humanitaires des habitants arméniens.

**Mais les biens et les marchandises ne transitent donc plus du tout à travers Latchine ?**

Aujourd'hui, seules les évacua- ... manitaire, via les routes d'Agdam et de Fizouli *[c'est-à-dire de l'Azerbaïdjan]*. Mais les Arméniens du Karabakh refusent, ce qui est incompréhensible.

**La population arménienne du Haut-Karabakh veut garder la liberté de choisir ce qu'elle consomme et, de toute évidence, choisit ce qui vient d'Arménie…**

Quand vous avez faim, vous ne pouvez pas poser des conditions sur la route. En quoi l'aide humanitaire en provenance d'Agdam est-elle pire que celle délivrée via Latchine ? Si les gens sont sincères à propos de leur pénurie alimentaire, je crois que le principal, pour eux, c'est de recevoir des produits. Nous voyons que des soi-disant dirigeants arméniens gardent en otage la large majorité des Arméniens, parce qu'on entend des voix alternatives mécontentes sur les réseaux sociaux, parce que des gens souffrent de pénuries. Ceux qui se considèrent comme des dirigeants locaux utilisent cette situation pour dénigrer et faire monter la pression contre l'Azerbaïdjan à l'échelle internationale. Ils essaient d'induire en erreur l'opinion publique internationale.

« Depuis deux ans et demi, on constate l'utilisation abusive du

**Vagif Khachatryan, 68 ans, évacué par le CICR pour des raisons de santé, a été arrêté, le 29 juillet, au poste de contrôle ... Quoi qu'il ait fait, M. Khachatryan n'était pas un commandant à l'époque. Or, presque tous les hommes adultes du Haut-Karabakh ont pris les armes à un moment ou à un autre depuis trente ans. Quel message envoyez-vous aux hommes du Haut-Karabakh avec cette arrestation ?**

L'Azerbaïdjan n'a pas l'intention de jeter en prison tous les hommes qui habitent aujourd'hui au Karabakh. Cet homme figure sur une liste d'individus ayant commis des crimes de guerre, des exactions insupportables contre la population civile azerbaïdjanaise, au début des années 1990, durant la première guerre du Karabakh.

**L'Arménie demande des garanties de sécurité pour la population arménienne du Haut-Karabakh. Or, il existe une ani- ... sarmés et placés sous l'autorité de policiers et de militaires azerbaïdjanais. Quelles mesures l'Azerbaïdjan prend-il pour les rassurer ?**

La déclaration trilatérale a octroyé cette fonction au contingent de maintien de la paix russe, pour un mandat renouvelable, sauf désaccord de l'une des trois parties. Cela veut dire que l'on a encore presque deux ans de présence russe assurant la sécurité physique des Arméniens du Karabakh.

**Quel bilan faites-vous de la mission des forces de maintien de la paix russes ? Après l'agression contre l'Ukraine, la Russie n'a-t-elle pas perdu sa légitimité pour jouer un rôle pacificateur dans le Caucase ?**

La Russie est le seul pays qui a su mettre fin à la guerre et convaincre l'Arménie et l'Azerbaïdjan de mettre fin aux hostilités militaires. L'Azerbaïdjan a accepté la présence de militaires russes sur son territoire pour rassurer tout le monde, y compris les Arméniens du Karabakh. Nous comptons sur ce contingent pour continuer à assurer la sécurité des Arméniens du Karabakh, mais aussi pour développer la confiance. Il appartient aux Russes d'essayer de créer les conditions pour qu'il y ait une coexistence pacifique. Il faudra beaucoup de temps avant que les Arméniens et les Azerbaïdjanais éprouvent un sentiment de confort dans la coexistence

**Le problème vient aussi du fait que l'Azerbaïdjan est un régime politique autoritaire. Le pouvoir vient de refuser l'enregistrement légal des trois principaux partis d'opposition du pays. Si les Azerbaïdjanais ne peuvent pas choisir librement leurs représentants, il n'est pas difficile d'imaginer l'inquiétude des Arméniens du Karabakh…**

Je rejette votre qualification d'autoritaire. L'Azerbaïdjan est un pays aussi démocratique qu'un autre. Il appartient à la justice azerbaïdjanaise de se prononcer sur ces cas individuels. Faire un parallèle avec la population arménienne du Karabakh n'a aucun sens. Si l'on parle de droits de

Des camions d'aide humanitaire arméniens, au poste de contrôle azerbaïdjanais, près de Latchine, le 30 juillet KAREN MINASYAN/AFP

# "Qarabağda cəmi 50 min erməni yaşayır"

## "Le Monde" qəzeti Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsini yayıb

**Fransanın "Le Monde" qəzetində Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi dərc edilib. Jurnalist Emanuel Qrinzspanın Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyət, xüsusilə də Laçın yolu ilə bağlı suallarını cavablandıran Elçin Əmirbəyov Qərb mətbuatında da yer alan və guya yolun bağlanması ilə əlaqədar əsassız iddialara cavab verib.**

Prezidentin xüsusi nümayəndəsi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun olaraq, Laçın yolunun humanitar məqsədlər üçün istifadə edilməli olduğunu, lakin iki il yarım müddət ərzində Ermənistanın bu yoldan qeyri-qanuni məqsədlər, o cümlədən Azərbaycan ərazisinə silahlı qüvvələrini, habelə silah-sursat göndərmək üçün istifadə etdiyini bildirib. O, Qarabağda yaşayan ermənilərin sayının 120 min kimi göstərilməsinin həqiqətə uyğun olmadığını və əslində, orada cəmi 50 min erməninin, o cümlədən 10 min qanunsuz erməni silahlı qüvvələrinin olduğunu vurğulayıb.

Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi müxbirin "Erməni hərbçilərini öz vətəndaşınız hesab edirsinizmi" sualına cavab olaraq, bu ermənilərin Azərbaycan ərazisinə üçtərəfli Bəyanata zidd olaraq, qeyri-qanuni daxil olan Ermənistan silahlı qüvvələrinin üzvləri olduqlarını qeyd edib. Azərbaycan tərəfinin bu səbəbdən aprelin 23-də beynəlxalq hüquqa uyğun olaraq Laçında dövlət sərhədindən buraxılış məntəqəsi yaratdığını söyləyib.

Laçın yolundan hazırda tibbi ləvazimatların keçdiyi və humanitar məqsədli yüklərin Azərbaycanın Ağdam və Füzuli ərazisindən keçməsi təklifinin isə ermənilər tərəfindən qəbul edilmədiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

E.Əmirbəyov vurğulayıb ki, əgər həqiqətən də vəziyyət təqdim edildiyi kimi faciəvi olsaydı, insanlar humanitar yardımın hansı istiqamətdən gəldiyi əhəmiyyət verməzdi. Deməli ki, qondarma üzdəniraq "hakim dairələr" orada yaşayan ermənilərin əksəriyyətini girov saxlayırlar, çünki sosial şəbəkələrdə narazılıqlar eşidilir. Qondarma hakim qüvvələr bu vəziyyətdən Azərbaycan əleyhinə beynəlxalq səviyyədə təzyiq məqsədilə istifadə etmək istəyirlər.

Xüsusi nümayəndə müsahibəsində Vaqif Xaçaturyanın həbsi ilə bağlı faktlardan da bəhs edib, onun adının Birinci Qarabağ müharibəsi zamanı mülki azərbaycanlılara qarşı müharibə cinayətləri törədən şəxslərin siyahısında olduğunu diqqətə çatdırıb.

Elçin Əmirbəyov, həmçinin jurnalistin Azərbaycanın avtoritar rejim olması ilə bağlı təxribatçı sualına cavab olaraq, Azərbaycanın demokratik ölkə olduğunu vurğulayıb və insan hüquqları məsələsinə gəldikdə, Fransa da daxil olmaqla, heç bir ölkənin mükəmməl olmadığı müxbirin diqqətinə çatdırılıb.

# Özbəkistan: İstiqamət Azərbaycandır



Özbəkistanın lideri Şavkat Mirziyoyev avqustun 9-da keçirilən prezident seçkilərində qələbə qazandıqdan sonra ilk rəsmi səfərini Azərbaycana edəcək. Azərbaycan Prezidenti İlham Əliyev "Şavkat Mirziyoyevin səfərinin Bakı ilə Daşkənd arasında əlaqələrin inkişafında yeni mərhələ olacağına" əminliyini ifadə edib. İki ölkə liderlərinin Qarabağa səfər edəcəyi, orada Mirziyoyevin təşəbbüsü ilə tikilmiş məktəbi açacaqları gözlənilir. Ümumiyyətlə qəbul edilir ki, dövlət başçısının ilk xarici səfəri ölkənin xarici siyasətinin prioritetlərini müəyyən edir. Özbəkistan üçün bu, bütün logistik marşrutların keçəcəyi türk birliyidir.

Qarabağın Füzuli şəhərində Özbəkistanın vəsaiti hesabına 940 şagird yerlik məktəb tikilib. "Bu, xarici hökumət tərəfindən maliyyələşdirilən ilk layihədir. Bu, keçmiş qaçqınlara şəxsən bağışladığınız məktəbdir. Biz buna görə çox minnətdarıq. İnşallah, bu il onun açılışını birlikdə qeyd edəcəyik", - İlham Əliyev Prezident Şavkat Mirizyoyevin 2023-cü il martın 1-2-də Bakıya işgüzar səfəri zamanı deyib.

Xatırladaq ki, Özbəkistan lideri Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlardan əlavə Qoşulmama Hərəkatının sammitində iştirak edib. 2027-ci ildə Qoşulmama Hərəkatına sədrlik Özbəkistana keçəcək. Yeri gəlmişkən, İlham Əliyev bu hərəkatın sədri olarkən Özbəkistanın bu posta namizədliyini dəstəkləyib. Ekspertlərin fikrincə, bu, iki ölkə arasında sıx münasibətdən xəbər verir. Məsələn, təkcə ötən il İlham Əliyev bu Orta Asiya respublikasına üç dəfə səfər edib. Görüşlərin nəticələri heyranedicidir: Azərbaycan Özbəkistana 12 milyon dollar sərmayə qoyub və 204 şirkət açıb. Əsas fəaliyyət sahələri maşınqayırma və metal emalı, yüngül sənaye, qida istehsalı, mənzil tikintisi, xidmət və s.



Digər sahələrdə də potensial var. Məsələn, bərpa olunan enerji mənbələri üçün komponentlərin birgə istehsalı. Bunu Özbəkistan Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun şöbə müdiri Milana Bazarova "Özbəkistan və Azərbaycan: əməkdaşlığın yeni üfüqləri" mövzusunda keçirilən dəyirmi masa zamanı deyib. Onun sözlərinə görə, Özbəkistan yaxın bir neçə ildə bərpa olunan enerji istehsalını 25 min MVta, yəni 14%-dən 40%-ə çatdırmağı hədəfləyir. Beləliklə, 2025-ci ilə qədər 10 günəş və külək elektrik stansiyasının tikintisi gözlənilir. 2026-cı ilə qədər təqribən 3000 gigavata, 2030-cu ilə qədər isə 8000 GVt göstəriciyə çatmaq planlaşdırılır". Bazarovanın sözlərinə görə, bərpa olunan enerji sektorunun həm Özbəkistan, həm də Azərbaycan üçün strateji inkişaf istiqaməti olduğunu nəzərə alaraq, müvafiq komponentlərin istehsalı üzrə birgə müəssisənin yaradılması məqsədəuyğun olardı. Daha onlarla layihə öz növbəsini gözləyir. Xatırladaq ki, fevral ayında Özbəkistan-Azərbaycan birinci regionlararası forumu keçirilmiş, onun çərçivəsində tərəflər 500 milyon ABŞ dolları dəyərində birgə investisiya fondunun yaradılmasına dair hökumətlərarası saziş imzalamışlar. Fondun yeni iş yerlərinin açılmasına, ticarət dövriyyəsinin artırılmasına və ticarət dövriyyəsinin artırılmasına kömək edəcəyi bildirilmişdi.

Mərkəzi Asiya Beynəlxalq İnstitutunun direktor müavini Şerzod Fayziyevin sözlərinə görə, Özbəkistan öz iqtisadiyyatına təxminən 170 milyard dollar cəlb etməyi gözləyir: "Sevindirici haldır ki, Azərbaycan Mərkəzi Asiyanın inkişafında maraqlıdır və biz bu imkanları müzakirə edəcəyik".

Özbəkistan və Azərbaycan arasında əməkdaşlıq logistika, investisiya və xarici tərəfdaşların cəlb edilməsi baxımından vacibdir. Özbəkistan prezidentinin Bakıya ilk xarici rəsmi səfəri Azərbaycanın mühüm tərəfdaş, əsasən də potensial kimi əhəmiyyətini göstərir, çünki ticarət və qarşılıqlı investisiyaların hazırkı səviyyəsi qənaətbəxş deyil. Bir neçə amil nəzərə alınmalıdır. Bu, ilk növbədə, logistikadır, çünki Özbəkistan Türkmənistandan keçməklə Xəzər dənizinə, daha sonra isə Azərbaycan, Türkiyə və Avropaya çıxış yolu ilə nəqliyyat marşrutlarını genişləndirməklə həmin çətin coğrafi mövqedən çıxmaq məsələsi ilə kəskin şəkildə üzləşir. Bu, Bakıda Orta Dəhliz adlanan Transxəzər marşrutudur. Daşınan yüklərin həcmi artır və bu kontekstdə Transxəzər marşrutu əsas rol oynayır.

Özbəkistanın Nəqliyyat və Logistikanın İnkişafı Problemlərinin Öyrənilməsi Mərkəzinin direktoru Bekzod Xolmatov hesab edir ki, Bakıda Heydər Əliyevin adını daşıyan gəmiqayırma zavodunda Özbəkistan üçün müxtəlif gəmilər tikilə bilər. Ekspertin sözlərinə görə, Özbəkistan da "Zəngəzur dəhlizi"nin açılmasında maraqlıdır və bu layihənin həyata keçirilməsində Azərbaycana dəstək verməyə hazırdır. Qeyd edək ki, Zəngəzur dəhlizi Ermənistan ərazisindən keçən Azərbaycan və onun Naxçıvan bölgəsi arasında nəqliyyat əlaqəsidir. Bakı bu dəhlizin tərkib hissəsi olan Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi üzərində işləyir. Azərbaycan tərəfinin məlumatına görə, işlər 80% tamamlanıb. Ermənistan, Bakının fikrincə, Zəngəzur bölgəsində Azərbaycanın iki sərhədi - şərqində Zəngilan rayonu ilə və qərbdəki Naxçıvan Muxtar Respublikası arasında dəmir yolu və avtomobil yolunun qısa 40 km-lik hissəsini tikməlidir. Lakin Ermənistan hakimiyyəti dəhlizin öz hissəsinin layihələndirilməsinə tələsmir. İlham Əliyev Qoşulmama Hərəkatının forumunda İrəvanı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməkdə ittiham edib.

Ermənistanın baş naziri Nikol Paşinyan isə bildirib ki, "nə yazılı, nə də şifahi olaraq Ermənistan dəhlizlə bağlı heç bir öhdəlik götürməyib və heç vaxt belə şərhi qəbul etməyəcək". İran da "Zəngəzur dəhlizi" ideyasını bəyənmir. Tehran ehtiyat edir ki, bu layihənin həyata keçirilməsi onu Ermənistana və daha sonra Gürcüstanın Qara dənizdəki limanlarına sərbəst girişdən məhrum edə bilər.



Digər məsələlərə gəlincə, rəsmi Daşkənd üçün Azərbaycan uğurlu tarixə malik investisiyaların cəlb edilməsi və öz maraqlarının müdafiəsində uğurlu qarşılıqlı fəaliyyət baxımından ən uğurlu dövlətlərdən biridir. Bu, bir çox cəhətdən Özbəkistan üçün əməkdaşlıq meyarıdır. Ekspertlər yaxın gələcəkdə xarici siyasət və xarici iqtisadi fəaliyyətin Türkdilli Dövlətlər Təşkilatına (TDT) daxil olan ölkələrə yönələcəyinə diqqət çəkib. "Mədəni və linqvistik yaxınlıq baxımından Azərbaycan Özbəkistana Türkiyədən qat-qat yaxındır. Buna görə də Özbəkistanın TDT çərçivəsində Azərbaycanla daha sıx əlaqələri var.

**V.SALAH**

# Çin-Rusiya:
## Ukrayna haqqında nə düşünülür?

***Avropa Şurasının Xarici Əlaqələr Şurasının direktoru Mark Leonard Politico üçün yazdığı məqalədə qeyd edir ki, Çin Ukraynadakı münaqişəni Qərbdən fərqli qəbul edir. Pekin baş verənlərə böyük şəkil çərçivəsində baxır və Qlobal Cənubu fəth etmək şansını əldən verməməyə çalışır. Pekinin Ukrayna münaqişəsi ilə bağlı daim dəyişən mövqeyinə yaxından nəzər salsanız, çinlilərin buna Qərbdən çox fərqli baxdığı aydın olur.***

Çin həqiqətən Ukrayna haqqında nə düşünür? Bu sual həm ukraynalıların özlərini, həm də Qərb müttəfiqlərini düşündürür. Bəziləri yəqin ki, Çinin qlobal səviyyədə müharibə və sülh məsələlərini həll etmək iqtidarında olduğunu nümayiş etdirmək üçün 2012-ci ildən bəri keçirilən böyük bir adla illik Pekində keçirilən son Ümumdünya Sülh Forumunda cavab alacağını gözləyirdilər.

Amma forumun qərbli qonaqları Ukrayna mövzusunun arxa planda qalmasını çox təəccübləndirdilər. Bundan əlavə, onları daha bir məyusluq gözləyirdi: Kiyevi müzakirə edən yeganə qonaqlar ruslar idi. Məlum olub ki, ukraynalılar heç dəvət olunmayıb. Bununla belə, Çinin daim dəyişən mövqeyini izləyənlər üçün bu, çətin ki, sürpriz deyil. Ümumdünya Sülh Forumunda iştirak etməklə yanaşı, son il yarım ərzində biz aparıcı universitetlərdən, beyin mərkəzlərindən və partiya təşkilatlarından onlarla çinli mütəfəkkir və strateqlə müsahibələri oxumuşuq. Onların ölkəsi Ukrayna münaqişəsinə necə baxır? Məlum olub ki, bu məsələ ilə bağlı bütün qızğın müzakirələrə baxmayaraq, Çin bunu Qərbdən fərqli qəbul edir.

Birincisi, Çin üçün Ukraynada hərbi əməliyyatlar prinsipcə o qədər də vacib deyil. Onlar dünya düzənini əsaslı şəkildə dəyişdirən bir növ fəlakətli qarşıdurma kimi deyil, Çin və ABŞ arasında proxy müharibə kimi daha böyük mənzərənin sadəcə bir hissəsi kimi görünürlər. Qeyd etmək lazımdır ki, çoxlarının fikrincə, Amerika münaqişədən Çini mühasirəyə almaq üçün istifadə edir. Belə ki, Yaponiya və Koreyanın Rusiyaya qarşı sanksiyalar tətbiq etdiyi (Qərbin təzyiqi nəticəsində) və Madriddə keçiriləcək NATO sammitinə dəvətlə mükafatlandırıldığı vurğulanır. Eyni məntiqlə, bir çox çinli mütəfəkkir avropalıları Pekini alyansın strateji baxışına daxil etməyə və Çin texnologiyası ilə bağlı daha sərt mövqe tutmağa inandırıb.





Bu arada, bu mütəfəkkirləri Vaşinqtonun bütün dünyanı dəstəkləyə bilməməsi faktı ruhlandırır. Bir ziyalının qeyd etdiyi kimi, Soyuq Müharibə dövründən fərqli olaraq, Qərb inkişaf etməkdə olan ölkələri Ukraynaya yardım ətrafında birləşdirə bilmədi. Ekspert vurğulayıb ki, 157 dövlət bu məsələdə nə Qərbi, nə də Çini dəstəkləmir. Beləliklə, Pekinin xarici siyasətinin əsas məqsədi "qoşulmayanların" rəğbətini qazanmaq və Birləşmiş Ştatların sarsılmış reputasiyasından istifadə etmək oldu.

Qlobal Cənub uğrunda bu döyüş Ukraynadakı münaqişədən xeyli kənara çıxır. Amerika "feodalizmi"nə qarşı duraraq Pekin Qlobal İnkişaf Təşəbbüsü, Qlobal Təhlükəsizlik Təşəbbüsü və Qlobal Sivilizasiya Təşəbbüsü formasında öz təkliflərini işləyib hazırladı - bütün bunlar forum iştirakçılarına böyük həvəslə təqdim olundu. Əhəmiyyətli odur ki, onların çoxu məhz Çinin fəal şəkildə axtardığı ölkələrdən gəlib.

İkinci dərs odur ki, Çinin Rusiyaya dəstək verməklə itirməkdən çox qazanacağı var. Lakin Ümumdünya Sülh Forumunda rusiyalı ekspertlərin iştirakı Pekinin Moskvapərəstliyini vurğulasa da, rusiyalı qonaqlara ən yaxşı yerlər verilsə də, açıq-aşkar təssürat var ki, Moskva indi, ən yaxşı halda, yalnız Pekinin kiçik tərəfdaşıdır. Səslər son dərəcə tənqidi olsa da, hamı razılaşır ki, hər iki ölkəni Qərbdən sonrakı dünya nizamına dair ümumi baxış birləşdirir.

Başqa bir nəticə ondan ibarətdir ki, çinli siyasi texnoloqların fikrincə, Ukraynadakı münaqişə yaxınlaşdırmadı, həm də Tayvanda müharibəni təxirə salmadı. Rəsmi mövqe belədir ki, "Ukrayna Tayvan deyil", lakin alimlər münaqişəni diqqətlə izləyirlər. Qərbin Rusiyaya qarşı sanksiyalarında və Kiyevə hərbi yardımında birliyi və fəallığı çoxlarını təəccübləndirdi. Bununla belə, onlar həmçinin qeyd ediblər ki, nüvə dövləti ilə birbaşa müharibəyə getmək istəməməklə bağlı arqumentlər Tayvana gəldikdə Çinə də aiddir. Nəticədə onlar düşünürlər ki, Qərb birbaşa qarşıdurma əvəzinə adanı silahlandırmaq və Yaponiya kimi yerli gücləri dəstəkləmək kimi "tüklü kirpi" strategiyasını qəbul edəcək.

Nəhayət, çinlilər hesab edirlər ki, iqtisadi qarşılıqlı asılılıq Pekini Qərblə qarşıdurma vəziyyətində qoruya bilməyəcək - əvəzində o, sanksiyalara hazırlaşmalıdır. Beləliklə, Ümumdünya Sülh Forumunda iqtisadi təhlükəsizlik, təchizat zəncirləri və sanksiyalardan qorunma haqqında çox danışıldı. Hansısa məqamda Braziliyanın keçmiş prezidenti və hazırda Yeni İnkişaf Bankının rəhbəri Dilma Russeff çıxış edərək Qərbin "məhdudlaşdırma" və "riskləri azaltmaq" cəhdlərini tənqid etdi. Ölkələri Qərbin "qorxuduculuğundan" qorumaq naminə o, dedollarizasiyaya çağırıb.

Bu mənada tədbirdə təqdim olunan dünya düzəni əsasən Pekinin Ukrayna ilə bağlı prioritetlərini əks etdirir. Forumun özü kimi, münaqişə də Çinə öz təhlükəsizliyini beynəlxalq səviyyədə gücləndirmək, Qlobal Cənubla əlaqələri genişləndirmək, vasitəçi imicini möhkəmləndirmək və iqtisadi müstəqilliyə təkan vermək üçün Qərbin zəif cəhətlərindən istifadə etmək imkanı verib. Pekində tanınmış çinli alimlərdən biri deyib ki, əlverişsiz vəziyyətdən belə qazana biləcəyiniz fayda var. "Nə qədər ki, Çin Rusiyanı silahlandırmaq məcburiyyətində deyil, - o deyib, - insanlar Pekinin konstruktiv rol oynaya biləcəyinə ümid edəcəklər.



Ardı Səh. 5

ANALİZ




Əvvəli Səh. 4

# Çin-Rusiya: Ukrayna haqqında nə düşünülür?

yalnız bir və ya iki ölkə deyil, bütün üzvlər həll edir. Bundan əlavə, BRİKS-ə qoşulmaq istəyən inkişaf etməkdə olan iqtisadiyyatlar da mühüm rol oynayır, ona görə də təşkilatın işini təhlil edərkən assosiasiyaların bəzi üzvləri arasında fikir ayrılıqlarının qabardılması obyektiv və etibarlı nəticəyə gətirib çıxarmayacaq, ekspertlər hesab edir.

Cənubi Afrikanın Çindəki səfiri Siyabonqa Cyprian Kwele Global Times-a eksklüziv müsahibəsində deyib ki, əvvəldən BRİKS heç vaxt eksklüziv bir klub kimi düşünülməmişdi. O, inklüzivliyi, qlobal idarəetmə və maliyyə institutlarında islahatları, daha ədalətli bir cəmiyyətin yaradılmasını, çoxtərəfli sistem və sistem daxilində çoxqütblü idarəçiliyin gücləndirilməsini müdafiə edirdi. "Maraq artımından danışırıqsa, əsas sual BRİKS-ə üzvlüyün digər inkişaf etməkdə olan ölkələrin və iqtisadiyyatların hansı üstünlüklərini görməsidir. Məsələn, assosiasiyaya qoşulmaq üzv dövlətlərə bir-biri ilə ticarəti artırmağa imkan verdi ki, bu da yerli əhaliyə birbaşa fayda gətirdi - Yeni iş yerləri ortaya çıxdı, iqtisadi artım sürətləndi" deyən bu il BRİKS sammitinə ev sahibliyi edən ölkənin səfiri vurğulayıb.

Çinin Renmin Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunun direktoru Vanq Yivey deyib ki, BRİKS mexanizminin böyük potensialını görən bəzi Qərb dövlətləri, xüsusilə də ABŞ, "dünyanı üç bloka - ABŞ-la birlikdə bölməyə çalışırlar. AB, Rusiya ilə Çin və Hindistan da daxil olmaqla Qlobal cənub.

### BRİKS üzvlərinin ümumi maraqları

Cənubi Afrikada keçirilən BRİKS sammiti ərəfəsində Qərb üzv ölkələr arasında fikir ayrılıqları barədə şayiələr yayaraq, bloku ləkələməyə çalışıb. Bu, böhtandan başqa bir şey deyil. Ekspertlərin fikrincə, onlar BRİKS-in öz hegemon dünya nizamını "düzəltməsindən" qorxur və onun birliyini pozmağa çalışırlar.

Bu ayın sonunda Cənubi Afrika Respublikasında BRİKS sammiti keçiriləcək. Bununla bağlı son vaxtlar Qərb mediasında assosiasiya üzvləri arasında yaranan fikir ayrılıqlarının gələcəkdə BRİKS-in birliyinə və inkişafına təsir göstərəcəyi barədə şayiələri qızışdırmağa çalışan səslər səslənir. Lakin bu cür böhtan blok üzvləri tərəfindən dərhal rədd edildi.

Çinli analitiklər bildiriblər ki, çoxtərəfliliyi və beynəlxalq münasibətlərin demokratikləşməsini müdafiə edən bir təşkilat üçün fikir ayrılığı olduqca normaldır və blokun üzvləri arasında fikir ayrılıqlarını şişirtmək və bununla da BRICS əməkdaşlıq mexanizminin əhəmiyyətini azaltmaq cəhdləri yalnız bəzi Qərb elitalarının paxıllığı və narahatlığıdır. Qeyri-Qərb ölkələri və ya inkişaf etməkdə olan iqtisadiyyatlar arasında əməkdaşlığın və inkişafın artdığını görəndə Birləşmiş Ştatların hegemonluğunu və birqütblü qlobal nizamı saxlamaq istəyənlər xüsusilə əsəbidir.

Bəzi Qərb mediası, o cümlədən Bloomberg və Reuters bu yaxınlarda sammit ərəfəsində BRİKS-in parçalanma problemini şişirdən xəbərlər dərc etməyə başlayıb. Çərşənbə günü Reuters xəbər verir ki, "Braziliya yeni üzvlər qəbul etmək istəyən böyük inkişaf etməkdə olan BRİKS qrupunun artan sürətinə müqavimət göstərir, lakin bu ay keçiriləcək sammitdə giriş meyarları üzərində müzakirə qaçılmaz görünür". Agentlik adlarını çəkmədən "üç Braziliya hökumət rəsmisi"nə istinad edir.

Bununla belə, çərşənbə günü bu ölkənin prezidenti Luiz İnasio Lula da Silva avqustun sonunda Cənubi Afrikada keçiriləcək BRİKS-in XV sammitinə böyük ümidlər bəslədiyini bildirib və bunu "son dərəcə vacib" adlandırıb. Sinxua xəbər agentliyinin məlumatına görə, Səudiyyə Ərəbistanı və ya Argentina kimi dövlətlər və digər inkişaf etməkdə olan ölkələr bloka qoşulub.

Çin Xarici Əlaqələr Universitetinin professoru Li Haidong deyib ki, beynəlxalq təşkilat daxilində fərqli fikirlər olduqca normaldır və "NATO və G7 daxilində çoxlu mübahisələr və hətta münaqişələr görə bilərik". Amma Birləşmiş Ştatlar "yeni təhdidlər" və "ehtimal olunan düşmənlər" yaratmaqla və "ABŞ-ın problemlərini tərəfdaşlarına yaymaqla" həmişə müttəfiqlərini bir sırada saxlamağa və ya ən azı onları bir araya toplamağa çalışır. Müəyyən dərəcədə Qərb inkişaf etməkdə olan ölkələrlə müqayisədə daha çox parçalanıb.

Cənab Li əlavə edib ki, BRİKS üzvləri arasında fikir ayrılıqlarını şişirtmək üçün şayiələrdən və yalan xəbərlərdən istifadə yalnız daxili çəkişmələr səbəbindən blokun iflic vəziyyətinə düşəcəyinə və dağılacağına ürəkdən ümid edən bəzi Qərb elitalarının düşüncə tərzini göstərir, lakin belə gözləntilər reallıqdan uzaqdır. Reuters-dən başqa, Bloomberg də analoji məqalə dərc edib. Məqalədə deyilirdi ki, BRIKS "həm Hindistan, həm də Çin üçün kifayət qədər böyük deyil". Bu, iki güc arasındakı gərginliyin "blokun Qərbə əsl meydan oxumasına mane olacağına" işarədir.

Hindistan Xarici İşlər Nazirliyinin sözçüsü Şri Arindam Bağçi ölkəsinin BRIKS-ə yeni üzvlərin qəbuluna qarşı olduğuna dair bəzi KİV-lərin "əsassız" fərziyyələrini və yalan məlumatlarını tənqid edib. "Biz bəzi əsassız fərziyyələr gördük... Hindistan BRIKS-in genişlənməsinə qarşıdır. Lakin bu, heç də doğru deyil", - o, cümə axşamı mətbuat konfransında deyib.

Fudan Universitetinin Beynəlxalq Araşdırmalar İnstitutunun professoru Lin Minvanq bildirib ki, Pekin və Dehli arasında müəyyən fərqlər olsa da, onları şişirtməyin mənası və səbəbi yoxdur. Onun sözlərinə görə, Çin-Hindistan rəqabətinin BRİKS-in inkişafına mane olduğunu da söyləmək olmaz. "Çin və Hindistan iki böyük inkişaf etməkdə olan ölkədir, ona görə də Qlobal Cənub çərçivəsində bir çox inkişaf və əməkdaşlıq məsələlərində ümumi maraqları bölüşürlər və buna görə də BRİKS mexanizmi son illərdə bu qədər uğurla inkişaf edir", - cənab Lin deyib.

Pekin və Yeni Dehli BRİKS-in genişlənməsinə razıdırlar, lakin ilk olaraq kimin bloka daxil olması ilə bağlı fikir ayrılığı var. Lakin bu, onların kompromis əldə edə bilməyəcəkləri anlamına gəlmir, deyən Lin Minqvanq rəqabətin mövcudluğuna baxmayaraq, əməkdaşlığın əsas tendensiya olduğunu vurğulayıb. Daha da önəmlisi odur ki, Çin və Hindistandan başqa, BRİKS-ə Rusiya, Cənubi Afrika və Braziliya da daxildir, ona görə də mexanizmin gələcəyini

"Onlar bu rəvayətlə qeyri-Qərb ölkələrində daxili problemlər yaratmağa və inkişaf etməkdə olan iqtisadiyyatlar arasında əməkdaşlığa xələl gətirməyə çalışırlar. BRİKS üzvləri bu tələdən uzaq durmalı və daha ədalətli və daha əlabatan qlobal sistem qurmaq və onlarla mübarizə aparmaq üçün birlikdə olmalıdırlar. Qərbin planetdə hökmranlıq etdiyi və ya beynəlxalq nizamın mövcud olduğu müddətdə qərar verə bilməyəcəyi və ya qərar vermək istəmədiyi məsələlər var", cənab Vanq deyib.

Li Haydonq onun fikrini dəstəkləyərək bildirib ki, BRİKS heç vaxt könüllü olaraq Qərblə blok qarşıdurmasına girməyəcək. Gələcəkdə digər inkişaf etməkdə olan iqtisadiyyatlar da qoşulsa belə, onlar G7-yə və ya ABŞ-ın rəhbərlik etdiyi digər təşkilatlara meydan oxumaqda maraqlı deyillər. Bu ona görədir ki, BRİKS yeni inklüziv qlobal sistem qurmağa çalışır və qarşılıqlı dəstək və inteqrasiyaya açıqdır. O, dünyada ədalətsizliyə, qeyri-bərabər inkişafa və sosial sarsıntılara səbəb olan tüğyan edən xaosa səbəb olan mövcud qlobal sistemin formalaşmasında nə Qərbin, nə də Vaşinqtonun buraxdığı səhvi təkrar etməyəcək.

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var.***



***Bəli, bu gün davamlı inkişaf yolu ilə irəliləyən ölkəmizin bütün sahələrdə göstəriciləri il-dən-ilə artmaqdadır. Həyata keçirilən islahatlar, vətəndaşlarımızın sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar, qeyri-neft sektorunun inkişafı üzrə görülən işlər öz müsbət nəticələrini verməkdədir. Bunu iyunun 11-də Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə səslənən rəqəmlər də təsdiqləyir. Cari ilin ilk altı ayının nəticələri deməyə əsas verir ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr icra edilir. Ötən altı ayda nəzərdə tutulmuş hədəflərə nail olunub.***

Sözsüz ki, hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil iqtisadiyyatın yüksək olmasıdır. Ölkə başçısı müşavirədə çıxışı zamanı görülmüş işlər, əldə olunan nəticələr haqqında geniş məlumat verdi, həmçinin, qarşıda dayanan vəzifələri müəyyənləşdirdi. Qeyd edilib ki, ölkəmiz uğurla inkişaf edir və bütün istiqamətlər üzrə qarşıya qoyduğumuz vəzifələr icra edilir. Müstəqil xarici siyasət yürüdən, tərəfdaşları ilə səmimi anlaşma siyasətinə üstünlük verən, dünyada, regional problemlər və qlobal məsələlərlə bağlı öz mövqeyini ədalət prinsipləri əsasında bildirən, beynəlxalq hüququn pozulmasına, milli münaqişələrə, irqi ayrı-seçkiliyə qarşı mübarizədə fəal iştirak edən Azərbaycan dünyanın siyasi, iqtisadi, humanitar platforması adını əməli fəaliyyəti ilə doğruldur. Müşavirədə 6 ay ərzində əldə edilən uğurlar xüsusi olaraq qeyd edilib.



# Qarabağ və Şərqi Zəngəzur dirçəlir, Böyük Qayıdış sürətlənir

## PREZİDENT İLHAM ƏLİYEV: "İstəyirəm ki, tezliklə bütün keçmiş köçkünlər qayıtsınlar dədə-baba torpaqlarına və biz əlimizdən gələni edəcəyik ki, bunu tezləşdirək"

### "BU İLİN SONUNA QƏDƏR QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURA TƏQRİBƏN 12 MİLYARD MANATA QƏDƏR VƏSAİTİN XƏRCLƏNMƏSİ TƏMİN EDİLƏCƏKDİR"

Bəli, bu gün dövlət siyasətinin əsas prioritetlərindən hesab edilən Qarabağın, Şərqi Zəngəzurun bərpası barədə danışdıqda təbii olaraq Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icra əhəmiyyətini vurğulamalıyıq. Proqrama əsasən Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunan böyük qayıdış prosesləri artıq qısa zamanda reallığa çevrilir. Bu xüsusda ilk olaraq Zəngilanın Ağalı kəndinin ötən dövrdə "Ağıllı kənd" konsepsiyasına uyğun qurulmasını və soydaşlarımızın oraya mərhələli şəkildə köçürülməsini qeyd etmək lazımdır. Əgər ötən il Zəngilanın Ağalı kəndi "Böyük Qayıdış"ın ilk müjdəsi idisə, bu il Talış və Laçına qayıdış isə bu proqramın necə ciddi, dəqiqliklə hazırlandığını, surətlə və ardıcıl şəkildə gerçəkləşdiyini göstərdi.

Prezident İlham Əliyev müşavirədəki çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı görülən işlərə xüsusi diqqət yetirib. O, bildirib ki, Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətin artırılması qarşısında duran iki əsas vəzifədir: "Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə, 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın gücləndirilməsinə. Yəni ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir".

Bəli, bu gün işğaldan azad edilən ərazilərdəki şəhər və qəsəbələrin Baş planları hazırlanaraq təsdiqlənib, hazırda bir çox yerlərdə fəal inşaat işləri aparılır. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcəkdir. xususi olaraq qeyd edilməlidir ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir. Çünki Azərbaycan Prezidenti...

### AZƏRBAYCAN XALQINA NƏ VƏD VERMİŞDİRSƏ, ONU DA YERİNƏ YETİRİBDİR

Bəli, bu gün Azərbaycan xalqı olaraq tariximizin ən əlamətdar, möhtəşəm, qürurlu anlarını yaşayırıq. Zəfər sevinci daddıq, illərlə həsrət qaldığımız Vətən torpaqlarımız bütövlüyünə qovuşdu, yüzminlərlə soydaşımız məcburi köçkünlük yükündən aza dolu. Artıq tarixi salnamələrimizə qızıl hərflərlə həkk olunacaq daha bir möhtəşəm məqamı, dədə-baba yurdlarımıza Böyük Qayıdışı yaşayırıq. 44 günlük Vətən müharibəmizin zəfərindən iki il yarım ötməmiş, Qarabağın, Şərqi Zəngəzurun əzəli sakinləri yurdlarında yaşamağa dönürlər.





Zəfərdən sonra bu xoşbəxtliyi ilk yaşayanlar Zəngilanın Ağalı kəndinin sakinləri oldu. Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara davamlı səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır. Və ən əsası isə AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI .

### ÖZ DAXİLİ MALİYYƏ MƏNBƏLƏRİ HESABINA REALLAŞDIRIR

Bəli, Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. Ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası işləri və iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərini təşkil etdiyi vurğulandı. Bir sözlə, bu gün qısa müddətdə görülən işlərin nəticəsi odur ki, artıq Şərqi Zəngəzurda və Qarabağda həyat canlanır, sakinlərin öz ata-baba yurduna qayıdışı prosesi başlayıb. Orada tikinti-quruculuq işlərinin aparılması, müasir şəhər və kəndlərin salınması, infrastrukturun yaradılması, təbii ki, Azərbaycanın iqtisadi gücünü göstərir və bütün bu işləri dövlətimiz heç bir kənar kömək olmadan yalnız özünün maliyyə imkanları hesabına həyata keçirir. Şəhərləri, kəndləri yenidən qurur. Ermənistanın məhv etdiyi mədəni, dini abidələrimizin bərpa edilir, nəqliyyat infrastrukturu, elektrik şəbəkəsi, su təchizatı hamısı yenidən qurulur. Ölkəmiz bütün bunları heç bir yerdən bir manat dəstək almadan təkbaşına edir. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır. İlin sonuna qədər artıq beş yaşayış məntəqəsində - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaq.

Bəli, bu gün insanlar həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları da Prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur: "Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi. Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib".

Bir sözlə, müşavirədə bir neçə dəfə xüsusi vurğulanan, dövlətimizin hədəf olaraq seçdiyi əsas istiqamətlərdən sayılan Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətin artırılması ilə bağlı yekun fikir kimi əminliklə demək olar ki, Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətlər, maliyyə resursları, ortaya qoyulan siyasi qətiyyət hər iki sahə üzrə planlaşdırılan işlərin böyük uğurla vaxtından əvvəl reallaşdırılmasına imkan verəcək. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: "Mən demişəm, iki istiqamət üzrə - hərbi potensial və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdır biz o qədər də ayıracağıq".

Ümumilikdə cənab Prezidentin 2023-cü ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxışı göstərdi ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər, sahələr üzrə qarşıya qoyulan vəzifələr yüksək səviyyədə icra edilir və bundan sonra da Azərbaycan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirəcəkdir.

***RƏFİQƏ KAMALQIZI***




# ŞUŞA:
## sevgilisi ilə qovuşub

Prof. Dr. Raqip Kutay Karaca: Biz Azərbaycan Xarici İşlər Nazirliyinin layihəsi çərçivəsində Bakıdayıq. 44 günlük müharibənin Azərbaycan xalqında yaratdığı qüruru, özünəinamı, Türkiyə sevgisini yaxından görmək imkanımız var. Şuşaya səfərimizlə də bu qürur və özünəinamı bir daha görmüş olduq. Biz həmçinin geriyə yolun və Azərbaycanın siyasi iradəsini qırmağın mümkün olmadığını da görmüşdük.

### 8 noyabr 2020-ci ilə qayıtdım...

Şuşada olarkən Azərbaycan Prezidenti İlham Əliyevin 8 noyabr 2020-ci il tarixində Şəhidlər Xiyabanından Azərbaycan xalqına ünvanladığı "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" bəyanatı, Şuşa qalasında Azərbaycan bayrağının asılması, hətta ermənilərin şəhəri "Şuşi" adlandırdıqlarına görə ağacla düzəldilmiş "i" yenidən xəyalımıza gəldi.

Bakıdan Şuşaya avtomobillə təxminən 5 saatlıq yoldur. Hələlik xüsusi icazə ilə gedilir.

### Füzuliyə baxdıqca adam dəhşətə gəlir

Keçid məntəqəsindən keçən kimi Füzuli rayonu səni qarşılayır. Budur, gözlərin qarşısında iki Füzuli var. Birincisi, 30 il sökülüb-dağıdılan, daşı daş üstündə qalmayan Füzulidir. İkincisi, yenidən planlaşdırılmış və sürətlə tikilməkdə olan müasir Füzulidir. Xəyal şəhəri köhnə Füzuliyə baxarkən buradakı görüntülər fonunda düşüncələrə daldım: hər xarabalığın yanında kök salan ağaclar o qədər böyümüşdü ki, sanki xarabalıqları gizlədərək "narahat olma, sənin yenidən var olacağına işarə bizik" deyirdilər. Ağaclar qoca Füzulini yaşadır.

Füzulidən çıxarkən sağa-sola baxdıqca adam dəhşətə gəlir. Burada hər yeri ermənilər minalayıb. Aşkar edilmiş minalar dirəklərlə işarələndiyi üçün adamda labirint oyun meydançasındaymış kimi hiss yaradır.

### Ermənistan buğda zəmilərinə mina basdırıb

Torpaqların minalanması beynəlxalq humanitar hüququn fundamental norma və prinsiplərinin pozulmasıdır. Bölgədəki minaların təmizlənməsinə təxminən 30 il və 25 milyard dollar lazım olduğu bildirilir. Bu günə qədər 80 min hektar ərazi təmizlənib və zərərsizləşdirilənlərin sayı 45 minə yaxındır. Ermənistan verməli olduğu mina xəritələrinin hamısını verməyib. Verilənlər də məlumatların yanlış olduğunu göstərir. Ümumilikdə 1 milyona yaxın minanın adı çəkilir və onların təmizlənməsi üçün 30 il vaxt gərəkdir. Minaların olması isə regionun bərpasını və köçkünlərin geri qayıtmasını ləngidir. Bütün bunlara isə insan hüquqları müdafiəçiləri, müharibə əleyhdarları, demokratiya tərəfdarları, beynəlxalq institutlar reaksiya vermir.

Biz təəccüblənirik? Yox. Füzulidən sonra gördüyümüz mənzərədə heç nə dəyişməyib. Hər yer taleyin ümidinə qalıb. Ermənistan buğda əkilməli olan tarlalara minalar basdırıb. Bütün bunlara baxmayaraq sevindirici tərəfi odur ki, Azərbaycan böyük sərmayələri çox sürətlə həyata keçirib. Üç hava limanı, əsasən Beynəlxalq Füzuli Hava Limanı tikilib.

### Şuşa qayalarını görərkən...

Dağlar qazılır, magistral yollar çəkilir. Şuşaya sığınan qayaları görəndə ağlımıza Azərbaycan əsgərlərinin həmin qayalara dırmaşaraq Şuşanı alması gəlir. Bu cəsarətin səbəbi böyük türk sivilizasiyasının mühüm şəhəri olan Şuşanı öz sahiblərinə qaytarmaq səyindən başqa bir şey deyil. Bir daha görürük ki, türkün torpağı başqasının mülkü ola bilməz.

Əsgərlərin "Şəhid olacağıqsa, Şuşaya girib onu görəndən sonra şəhid olaq" dediklərini eşidəndə Vətənini qorumaq əvəzinə qaçanları düşünürəm. Şuşa qalasını və onun qarşısında xarıbülbülün simvolunu görəndə həm kədər, həm də sözlə ifadə olunmaz sevinc hissi keçiririk. Kədərimiz odur ki, yerlə-yeksan edilməyə çalışılan bir tarix, taleyinə tərk edilmiş bir şəhər görürük... Sevincimiz odur ki, Şuşanın hər küçəsindən bir tikinti maşını çıxır. Böyük otellər tikilib. Bütün Şuşa əvvəlki vəziyyətinə uyğun bərpa olunur. Bütün bunların fonunda isə Prezident İlham Əliyevin "Əziz Şuşa, biz səni dirçəldəcəyik" ifadəsi canlanır.

### Xankəndinə baxarkən

Sevgilisini aldı. Şuşa təpəsindən Xankəndinə baxdıqca beynimizdə aydın oldu ki, heç bir şey əvvəlki kimi olmayacaq. Döyüş meydanında qazanılan torpaq Azərbaycan torpağıdır. Bu qələbənin masa arxasında itirilə biləcəyini və ya güzəştə gedə biləcəyini düşünənlər yanılırlar. Onların 2025-ci ilə qədər vaxtı var! Sonra? Onlar "Şuşa bəyannaməsi"ni xatırlamalıdırlar.

*Tərcümə etdi:*
*Mətanət Məmmədova*

# Erməni nazir İran səfiri ilə nəyi müzakirə edib?

Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyan İran İslam Respublikasının Ermənistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mehdi Sobhaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. "Səs" qəzeti xəbər verir ki, nazir səfirə Ermənistandakı xidmətində uğurlar arzulayıb.



Tərəflər isti, mehriban Ermənistan-İran münasibətlərini və onların dərinləşdirilməsinin zəruriliyini vurğulayıblar. "Münasibətlərimizin yaxşı templə inkişaf etdiyini görmək çox xoşdur, lakin digər sahələrdə də əlaqələrin inkişafı və dərinləşməsi üçün böyük potensial var", - deyən nazir enerji sahəsində mövcud əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Görüşdə birgə həyata keçirilən layihələrin icrası müzakirə edilib. Nazir layihələrin müəyyən olunmuş müddətdə başa çatdırılmasının vacibliyini vurğulayıb. O, xüsusilə İran-Ermənistan üçüncü elektrik ötürücü xəttinin tikintisinin tez bir zamanda başa çatdırılmasının vacibliyini vurğulayıb. Səfir əmin edib ki, Ermənistanda həyata keçirilən layihələr üzrə işlərin müəyyən olunmuş vaxtda başa çatdırılmasını təmin edəcək.

Hər iki tərəf İran tikinti şirkətlərinin Ermənistanın tikinti proseslərində iştirakını vurğulayıb. Yol tikintisi və mədən işləri ilə bağlı məsələlər də müzakirə olunub.



İLHAM

# Deyəsən, Azərbaycan Dəmir Yolları QSC fəaliyyətini dayandırıb

Gördüklərimə, eşitdiklərimə əsasən deyə bilərəm ki, həqiqətən də Azərbaycan Dəmir Yolları QSC-nin fəaliyyətində və idarəetməsində vəziyyət acınacaqlıdır. Bəzən adama elə gəlir ki, ölkəmizdə belə adda qurum yoxdur. Ancaq dəmir yollarında ara-sıra parovozun fit səsini eşidəndə anlayırsan ki, "xeyr, deyəsən, belə bir qurum var". Sadəcə, rəhbərlik ya yerində deyil, ya da ki, bacarıqsız və səriştəsiz kadrlardır. Məlumatlı şəxsin bizə dediyinə görə, hazırda ADY QSC-də vurhavur çal-oynasındır. Rəhbərlikdə təmsil olunan şəxslərin hərəsinin başı daha maraqlı işlərə qarşdığından, dövlətimizin strateji sahəsi olan dəmiryoluna diqqəti tamamilə yaddan çıxıblar. Demirəm ki, onları büdcə vəsaitlərini ciblərinə və dost tanışlarına xərclədiklərinə görə məhşər ayağına çəksinlər, yaxud başlarının üstünü qara maskalılar kəsdirsin, yaxud da Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin əməkdaşları kabinetlərində gözlərinə əyani şəkildə görünsün. Bir qədər silkələmək və başa salmaq lazımdır ki, işləmək və xalqa xidmət etmək lazımdır. Nəzərə almaq lazımdır ki, dövlətimizin əsas diqqət və qayğı göstərdiyi sahələrdən də biri ADY QSC-dir. Ötən illər ərzində dəmiryolunun müasir dövrün tələblərinə uyğun qurulması üçün dövlət büdcəsindən və digər layihələrdən 2 milyard manata yaxın vəsait ayrılıb. Bunun nəticəsində yeni qatarlar alınıb, stansiyalar tikilib, dəmiryolları çəkilib, vaqon-lokomotiv parkı yenilənib, müasir avadanlıqlar vasitəsi ilə hərəkətin idarə edilməsi üçün işlər görülüb. Eyni zamanda, xarici qrantlar və kreditlər hesabına dəmiryolunun qurulmasında geniş işlərin görülməsinə yardımlar göstərilib. Yəni, milyardlarla manat pullar xərclənib ki, ADY QSC xalqın istək və maraqlarına uyğun işini qura bilsin. Lakin görünən ondan ibarətdir ki, ADY rəhbərliyi cüzi belə müsbət irəliləyiş əldə edə bilməyib.

Hansı əsasla on illərdir ki, fəaliyyət göstərmiş kupe və plaskart tipli sərnişin qatarlarının hərəkəti dayandırılıb? İlin-günün bu vədəsində, ölkəmizə turist axını olduğu bir vaxtda sərnişin qatarlarını dayandırmaq nəyə xidmət edir, onu başa düşmək olmur. Sual verib cavab almaq da mümkün deyil. Uzaqdan-uzağa xəbər göndərirlər ki, "biz belə istəyirik və əcəb edirk". Bu iddialı xəbərnaməyə sərt şəkildə cavab versən və desən ki, ay məmur, hələ ki, ADY QSC sənin şəxsi mülkiyyətinə daxil deyil, nədən belə zorba-zorba xəbər göndərirsən. Bu dəfə daha əsəbi ismarıc alacaqsan, get, işinlə məşğul ol. Sən də ki, bu qaçdı-tutdu xəbər alıb göndərməkdən yorulub, geri çəkiləcək və doğrudan-doğruya gedəcəksən harasa.

Redaksiyamıza daxil olan məlumat görə, qurumda çalışan işçilərə qarşı da ədalətsizlik edilir və addımbaşı onların haqları tapdalanır. Bir də görürsən ki, işçiyə ( bu yaxınlarda 200-ə yaxın süpürgəçi, fəhlə, bələdçi, texniki işçi işdən azad edilib - İ.Ə.) deyirlər ki, "siz sabahdan işə gəlməyin, işdən azadsınız". Niyə, səbəb nədir? Suala tutarlı cavab verən olmur. Sadəcə, rəhbərlik belə istəyib. Yəni, kefinəqulu qərar verib, gəncliyini dəmiryolunun inkişafına həsr etmiş işçini işdən çıxarır. Təsəvvür edirəm ki, işdən çıxarılmaq barədə xəbərdarlıq almış dəmiryolçu eşitdiyi xəbərin şokundan bir neçə dəqiqə yerində donub qalır və boynunu yazıq-yazıq büküb, dərindən yanıqlı ah çəkir. Sonra da səsini çıxarmadan, haqqını tələb etmədən ayaqları bir-birinə dolaşa-dolaşa çıxb gedir evinə. Kasıb evində onu nə gözlədiyini bir Allah, bir də ailəsi bilir. Bu kimi hallar onu deməyə əsas verir ki, "Azərbaycan Dəmir Yolları" QSC-i həm də haqqın tapdandığı, hüquqların pozulduğu ünvandır. Bu ünvana qarşı sərt tədbirlər görülməsə və qayda-qanun yaradılmasına nail olunmasa, həqiqətən də, vəziyyət ağır ola bilər. Məndən yazmaq və həyəcan təbili calmaqdır. Gerisi gerisi növbəti köşə yazımda.

# Ermənipərəst Qərbin Azərbaycana qarşı İNFORMASİYA MÜHARİBƏSİ










**Müstəqil, suveren dövlət olan Azərbaycan müstəqil siyasət yürüdür və bu, ölkəmizin məhz suveren hüququdur. Ölkəmizin öz milli maraqlarını qorumasında, ərazi bütövlüyünü, dəyərlərini mühafizə etməsində qeyri-qanuni, yaxud da qeyri-adi heç nə yoxdur, halbuki Qərb mediası buna görə Azərbaycanı absurd şəkildə hədəfə alıb. Azərbaycana qarşı Qərbin bu şəkildə media hücumu informasiya müharibəsinin davam etməsi deməkdir və görünür, ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin bu yaxınlarda Çinin media korporasiyası olan China Media Group-a müsahibəsi ermənipərəstlərə, ölkəmizə qarşı ədalətsiz mövqe sərgiləyənlərə kifayət qədər təsirli olub.**

Biz haqlı olduğumuzu, qanuni şəkildə, ədalətli mübarizə apardığımızı dəfələrlə sübut etdik və indi ölkəmizi hədəfə alan Qərb mediası bunu illərlə, az qala əsrin üçdə birinə yaxın müddət ərzində müşahidə etdi. Müşahidə etdi ki, Azərbaycan münaqişənin sülh yolu ilə həll olunması üçün yetərincə səbr nümayiş etdirdi, amma bundan ermənilər də, ermənipərəstlər də sui istifadə etdilər və topaqlarımız uzun müddət işğal altında saxlanıldı, resurslarımız qanunsuz şəkildə istismar olundu, sərvətlərimiz talandı, yaşıllıqlar məhv edilməklə, su hövzələrimiz çirkləndirilməklə ətraf mühitə, təbiətə, fauna və floraya ciddi şəkildə zərbə vuruldu, işğal etdikləri torpaqlarımızda ekoloji terror belə törədildi. Bu zaman ermənipərəst Qərb mediası susub durdu, müşahidəçi kimi davrandı və ermənilərin bütün istiqamətlərdə törətdikləri terrora, bölgədə baş verənlərə münasibət belə bildirmədi. Amma indi Cənubi Qafqaz necəsə Qərb mediasının maraq dairəsinə düşüb və məhz media hücumu etmək üçün nə isə axtarır.




ABŞ-ın aparıcı qəzetlərindən olan "The Washington Post" qəzetinin hansısa erməni oyunlarına alət olması, Azərbaycana qarşı media hücumu etmək qərarına gəlməsi həm təəssüf, həm də ikrah doğurur. Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri, iqtisadçı ekspert Qubad İbadoğlunun ölkəmizin hüquq-mühafizə orqanları tərəfindən saxlanılması ilə bağlı sözügedən nəşrin məqalə dərc etməsinə media hücumu demək tam yerinə düşür. Çünki bu, məhz Azərbaycanın daxili işinə qarışmaq deməkdir. Əməliyyat tədbirləri aparan Azərbaycanın Daxili İşlər Nazirliyi əməkdaşları tərəfindən saxlanılan və FETO terror təşkilatı ilə əlaqəsi olan 5 nəfərdən biri müxalifət düşərgəsindən olan siyasətçi Qubad İbadoğlu ilə əlaqələrindən danışıb və onun ifadəsi əsasında İbadoğlunun iş otağında axtarış aparılıb, istintaq üçün vacib olan sənədlər aşkarlanıb və tapılan həmin o vacib sənədlərlə əlaqədar siyasətçi saxlanılıb. Burada Qərb mediasının qeyri-normal nə isə gördüyü izah belə edilə bilməz. Müstəqil bir ölkənin öz ərazisində təhlükəsizliyini təmin etmək üçün gördüyü tədbirlər əvvəla labüddür, digər tərəfdən də həmin ölkənin suveren hüququdur və bundan qaralama kompaniyası məqsədi ilə istifadə etmək niyyəti də normalara sığışmır. Belə olan halda "The Washington Post" nəşrinin bununla bağlı qara piar etməsi media hücumu kimi də çox absurd addımdır. Təsəvvür etmək çətin deyil ki, Azərbaycanın hansısa bir media resursunda ABŞ müxalifət düşərgəsindən bir siyasətçinin saxlanılması və bunun haqsızlıq, qanunsuzluq olması barədə məqalə dərc olunsa o zaman nə təlatüm müşahidə olunar və Qərb buna nə dərəcədə aqressiv reaksiya verər və amerikalılar bunun Amerikanın öz işi olduğunu bəyan edərlər. Bəyan edərlər ki, öz vətəndaşlarından hansını saxlayacağı, hansını həbs edəcəyi, yaxud həbs edə bilməyəcəyi ilə bağlı Azərbaycanın fikri, mövqeyi ABŞ-ı heç maraqlandırmır. Eyni məntiqlə, elə Qubad İbadoğlu ətrafında yaranmış vəziyyət də Azərbaycanın daxili işidir və buna kiminsə burnunu soxmasına eyni şəkildə reaksiya olmalıdır. Hansısa qüvvələrə, hansısa bir dövlətə, xüsusən də dünyanın hegemon dövlətlərinə digər ölkələrin daxili işinə qarışmaq kimi xüsusi bir status, yaxud hüquq verilməyib.

Qubad İbadoğlunun həbsindən sonra Qərb mediası olan "Washington Post" Azərbaycan hakimiyyətini məntiqə uyğun gəlməyən günahlarda ittiham etmək qərarına gəlibsə, deməli, ölkəmizə qarşı media hücum təşkil olunub və bu da o deməkdir ki, ermənipərəst Qərb Azərbaycana qarşı informasiya müharibəsi aparır. Bir halda ki, Milli Məclisin deputatı Vüqar Bayramov qardaşı Qubad İbadoğlunun saxlanılmasına münasibət bildirərkən, istintaqın obyektiv aparılacağına və qanunun aliliyi prinsiplərinə uyğun ədalətli qərar veriləcəyinə inandığını bildirirsə, o zaman Qərb nə canfəşanlıq göstərir və bu "izafi təlaş" nəyə lazımdır? Yəni, hətta öz qardaşı belə saxlanılan Qubad İbadoğlunun işi üzrə aparılan istintaqın ədalətli olması kontekstində hüquq-mühafizə orqanlarına etimad göstərirsə, Qərb mediasının atılıb-düşməsi, yuyulmamış qaşıq kimi ortalığa atılması nə üçündür? Bax, elə bu suallara Qərb cavab tapsa, pis olmaz, əks halda, bunun qərəzli və media hücum olduğunu, suveren dövlətləri şantaj etməyə meyili ilə tanınan "Vaşinqton Post" da ABŞ Dövlət Departamentinin göstərişi ilə öz missiyasına sadiqliyini qəbul etməlidir.

Amerika cəmiyyətində, həm də bütün dünyada artan qütbləşmə fonunda zaman keçdikcə yüksək jurnalist standartını saxlamaq, redaksiyaya qeyri-təntənəli siyasi təsirin qarşısını almaq getdikcə çətinləşib və kifayət qədər ciddi bir nəşrin təbliğat alətinə çevrilməsi təəssüf doğurmaya bilməz. Hələ 2018-ci ilin iyulunda ABŞ-ın o zamankı prezidenti Donald Tramp Tvitter hesabında yazmışdı ki, "New York Times" və "Washington Post" kimi qəzetlər saxta xəbərlər yaratmaq meylinə görə media meydanını tərk etməlidirlər. Hətta Trampın sözlərinə görə, bu nəşrlərin hər ikisi də "Amazon"un xidmətində təbliğat vasitəsindən başqa bir şey deyil. Yeri gəlmişkən diqqətə çatdıraq ki, "Washington Post" həqiqətən də Amazon.com internet pərakəndə satış şirkətinin sahibi Ceff Bezosa 250 milyon dollara satılıb. Belə olan halda hər hansı qeyri-ciddi, absurd mövqe sərgilənməsi də mümkün görünür. Həmçinin "Washington Post"-un Demokratlar administrasiyası ilə əlaqələri də artıq sirr deyil və ona görə də, əslində, qəzetdə Azərbaycan haqqında yalan, absurd yazının, uyğunsuz məqalənin çıxması təəccüblü deyil. Görünən odur ki, Azərbaycanın dövlət idarəçiliyi sisteminin sabitliyi və davamlılığından razı qalmayanlar var. 44 günlük müharibədə tarixi qələbə qazanan və Cənubi Qafqazın ən güclü dövləti olaraq tanınan Azərbaycan öz qələbəsini, öz uğurunu özü əldə etdi və görünür bu fakt özü də Qərb üçün qıcıq doğurur. Qarabağ separatçılarına hər il rəsmi şəkildə yardım edən ABŞ, onillər boyu Azərbaycan ərazilərinin 20%-ni işğal altında saxlayan Ermənistana qarşı nəinki sanksiya tətbiqi, heç adi fikir belə səsləndirmədiyi halda, indi bu ölkənin tanınmış nəşri olan "Washington Post" bir siyasətçinin saxlanılmasına, yaxud da bizə məxsus olan ərazidə sərhəd buraxılış məntəqəsi qurulmasına görə nə əl-ayağa düşüb? Hələ də ABŞ-ın Azərbaycandakı səfiri işğaldan azad edilmiş, dirçəlməkdə, abadlaşdırılmaqda olan Şuşaya getməyib, hələ də tamamilə laqeyid münasibət sərgiləyirsə, nədən bir siyasətçi bu qədər maraq kəsb edən olur? Əlbəttə, onu da başa düşürük ki, "Washington Post" Dövlət Departamentindən sızan materiallara istinad edir və redaksiyanın məqalələrində üzə çıxan mövqe də təsadüfi deyil. Ermənipərəst mövqeyi ilə tanınan Viktoriya Nulandın ABŞ dövlət katibinin müavini təyin edilməsindən, Obamanın prezidentliyi dövründə ABŞ-da ölkəmizi ləkələmək üçün qarayaxma kampaniyası aparılan zaman Dövlət Departamentindəki fəaliyyətindən sonra sözügedən redaksiyanın bu şəkildə mövqe sərgiləməsi də yaddan çıxan deyil. Görünür, ABŞ Demokratik administrasiyası öz səhvləri üzərində işləməyib və hələ də Viktoriya Nulandın zəhərli dişi öz təsirini itirməyib.

Görünən odur ki, son hadisələrdən qaynaqlanan yeni anti-Azərbaycan kampaniyası ictimai rəyi yenidən Bakıya qarşı yönəltməklə ölkəmizin nüfuzuna xələl gətirmək istəyir və bu işdə "Washington Post" alət olaraq istifadə olunur. Azərbaycan torpaqlarını işğaldan azad etmək missiyasını yerinə yetirə bilməyən, sabitliyin təminatına nail ola bilməyən ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən olan ABŞ, bölgədə sabitliyi, təhlükəsizliyi müstəqil şəkildə təmin edən Azərbaycana dəstək vermək əvəzinə bunun əksinə çalışır və "Washington Post" kimi tanınmış bir nəşr də öz dırnaqarası "dəstəyini" əsirgəmir. İqtisadçı Qubad İbadoğlunun saxlanılmasını da Qərb, Azərbaycan hakimiyyətinə qarşı yenidən hücum dalğası başlamaq üçün bir səbəb olaraq istifadə etmək niyyəti ilə ortaya atıb. Məqsəd ilk növbədə xaos toxumu səpməkdir ki, bununla nəyə isə ümid edirlər. Amma unudurlar ki, İbadoğlunun saxlanması Azərbaycanın daxili işidir, bununla bağlı istintaq və məhkəmə var, bu məsələyə Viktoriya Nuland, yaxud da Makron kimilərinin, yaxud onların təsiri altında olan nəşrlərin qarışmağa haqqı, hüququ çatmır. Əgər bunu başa düşmürlərsə, heç olmasa onu başa düşsünlər ki, bu dəfə də onların planları Azərbaycanın qətiyyətli tədbirləri və xalqımızın mütləq əksəriyyətinin dəstəklədiyi siyasət nəticəsində puç olacaq. Azərbaycan hökuməti əhalinin dəstəyi, regiondakı və onun hüdudlarından kənardakı dostlarının köməyi ilə dəfələrlə sübut edib ki, ölkəmizlə bağlı rəqiblərin planları heç bir nəticə verə bilməz və ölkənin qəbul edilən ərazisi üzərində yalnız milli suverenlik hökm sürə bilər. Elə "Washington Post" nəşri də boş yerə özünü alətə çevirməsin və bilsin ki, bu gün Azərbaycan hər zaman olduğundan qat-qat güclü dövlətdir və güc amilinin həlledici rol oynadığı bir şəraitdə rəsmi Bakı öz gələcəyinə özü zəmanət verib və bütün mərhələlərdə rəqiblərin planlarını qətiyyətlə darmadağın etmək əzmindədir. Əgər ABŞ da Cənubi Qafqazdakı öz mövqeyini itirmək istəmirsə, o zaman Azərbaycanın milli maraqlarını tam nəzərə almalı, bu ölkənin daxili işlərinə müdaxilə etməklə onların həyata keçirilməsinə təsir göstərməyə çalışmamalı, "Washington Post" kimi bir nəşri alət edərək media hücumundan, eləcə də, təbliğat xarakterli informasiya müharibəsindən əl çəkməlidir.

***İnam Hacıyev***

# Zəngəzur dəhlizinin açılmasını kimlər və niyə istəmir?

**İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərlə regionda yeni reallıqlar yaradan Azərbaycan hazırda bütün addımlarını post-müharibə dövrünün tələblərinə uyğun atır. Xüsusilə ölkəmizin iqtisadi qüdrəti Qarabağda böyük tikinti-quruculuq işlərinin aparılmasına imkan verir. Eyni zamanda, bu gün dövlətimiz əsas diqqəti məhz Qarabağın dirçəlişi ilə bərabər, Zəngəzur dəhlizinin açılması istiqamətinə yönəldib.**








Amma məğlub Ermənistan yenə də məkrli niyyətini nümayiş etdirərək bu prosesdən, yeni dəhlizin açılması istiqamətində üzərinə götürdüyü öhdəlikdən, xüsusilə də sülh müqaviləsi imzalamaqdan boyun qaçırır. Azərbaycan isə qalib ölkə kimi Ermənistanı 10 noyabr üçtərəfli Bəyanatında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur etməkdə israrlıdır. Prezident İlham Əliyev çıxışlarında da bəyan edib ki, biz həlalik səbirli, təmkinli davranırıq : "Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış Bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın".

Azərbaycan müharibədən ötən üç ilə yaxın dövrdə işğaldan azad edilmiş ərazilərdə min kilometrlərlə yol çəkib. Bu mənada, ölkəmiz üçün Zəngəzur dəhlizinin Ermənistandan keçən 40 kilometrini inşa etməyə qısa zaman lazımdır. Belə görünür ki, Azərbaycan işğaldan azad edilmiş rayonlarda yol infrastrukturunu tam başa çatdırdıqdan sonra Ermənistanı Zəngəzur dəhlizinin açılmasına məcbur edəcək rıçaqlarını tam gücü ilə işə salacaqdır. Bunun üçün ölkəmiz həm hərbi, həm iqtisadi, həm də geosiyasi nüfuza, gücə malikdir.

Təbii ki, Zəngəzur dəhlizi yalnız Azərbaycanın iqtisadi mənfəətinə hesablanmayıb. Bu dəhlizdən qonşu ölkələr, o cümlədən Asiyanın böyük dövlətləri də yararlanmaq istəyirlər. Xüsusilə Çin kimi fövqəlgüc Zəngəzur dəhlizinin açılmasında maraqlı olduğunu dəfələrlə vurğulayıb. Ona görə ki, bu dəhlizin açılması Çinin mövcud yükdaşımalarını zaman və məsafəni azaltmaqla səmərəli nəticələrə gətirib çıxaracaq. Zəngəzur dəhlizi həm də türk dünyası arasında körpü rolunu oynayacaq. Qeyd edək ki, bu gün türkdilli ölkələrin ümumidaxili məhsulu 1,1 trilyon dollara çatır. Zəngəzur dəhlizinin açılması ilə bu ölkələr arasındakı ticarət həcmi daha 10-15 faiz artmaqla bolluq və firavanlıq da genişlənəcək.



Bu gün Ermənistanla bərabər, Zəngəzur dəhlizinin açılmasına ən ciddi maneələr yaradan digər ölkə İran İslam Respublikasıdır. Həm Vətən müharibəsində, həm də postmüharibə dövründə Ermənistana hərbi, iqtisadi və siyasi dəstək verən bu İslam düşməni dövlət Zəngəzur dəhlizini özünün "qırmızı xətti" elan edib.

Əslində, molla rejimi Zəngəzur dəhlizinin açılmasından ona görə narahatdır ki, birincisi, dəhliz açılarsa Naxçıvan Muxtar Respublikası 33 illik blokadadan çıxacaq. Bu isə Azərbaycanın İrandan asılılığını sonlandırmaq deməkdir. İkincisi, Zəngəzur dəhlizi açılarsa Rusiya Yaxın Şərqə çıxış əldə edəcək. Hazırda isə Rusiya bu məsələdə İrana möhtacdır. Demək, İran Rusiyanı da bu məsələdə özündən asılı vəziyyətdə saxlamağa çalışır. Üçüncüsü, dəhliz layihəsi reallaşacağı təqdirdə Türkiyə Orta Asiyaya yeni bir giriş qazanmış olacaq. İran isə türk dövlətlərinin yaxınlaşmasını, onların genişlənmiş iqtisadi əməkdaşlığını qəbul etmək istəmir.

Əvvəldə qeyd etdiyimiz kimi, Zəngəzur dəhlizinin açılmasını İran özünə qarşı siyasi, iqtisadi və təhlükəsizlik baxımından böyük təhdid hesab edir. İran güman edir ki, Azərbaycanla bərabər, qardaş Türkiyənin də buradakı siyasi və iqtisadi nüfuzu artacaq. Deməli Türkiyə NATO dövləti olduğu üçün dolayı yolla regionda ABŞ-ın və İsrailin də möhkəmlənmək ehtimalı var.

Digər tərəfdən, Zəngəzur dəhlizinin açılması Türkiyənin İrandakı nəqliyyat - loqistik xərclərini azaldacaqdır ki, bu da blokadada olan İranın iqtisadiyyatını daha da zəiflədəcəkdir. Bu gün Türkiyədən yüklər İran vasitəsilə həm Azərbaycana, həm də Mərkəzi Asiya və digər dövlətlərə göndərilir. Hazırda Türkiyə İrandan keçən hər avtomobil üçün 1000-1800 dollar arasında tranzit xərci ödəyir. Bu səbəbdən də İran nəqliyyat qovşağı kimi mövcud mövqeyini itirmək istəmir.

Təbii ki, Türkiyənin, Rusiyanın, Çinin və bəzi Avropa ölkələrinin Zəngəzur dəhlizinin açılması ilə bağlı təşəbbüsləri və Azərbaycanın qəti mövqeyi İranın və Ermənistanın haqsız mövqelərini ciddi şəkildə zəiflədəcək. Yəni bu dəhlizin beynəlxalq əhəmiyyəti həm İranı, həm də Ermənistanı oyundankənar vəziyyətə sala bilər.

***Elçin Zaman***




# "Cinayətkarlar cəzalandırılmadıqca erməni təcavüzkarları susan deyil"

"Məşəli sakinlərinin beynəlxalq ictimaiyyətə müraciət etməyə haqları var. Çünki bu kənddə, eləcə də Azərbaycanın işğal altında olan torpaqlarında yaşamış sakinlər uzun illər erməni təcavüzü nəticəsində ağır bəlalar görüblər. Əlbəttə ki, bu gün Məşəli sakinlərinin etdiyi müraciət beynəlxalq normalara uyğundur. Təəssüf ki, belə hallara qarşı beynəlxalq təşkilatlar uzun illərdir laqeydlik göstərib. Onlar vaxtında bu faciələri düzgün qiymət verməyiblər. Ona görə də bugünkü gündə ermənilər harınlayıblar. Onlar nəinki Azərbaycan xalqına, bəşəriyyətə qarşı xəyanət yolunu tutublar". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Tahir Rzayev deyib.

Onun sözlərinə görə, bu gün artıq yeni faktlar üzə çıxır: "Əlbəttə ki, bunların hər biri öz cavabını almalı və bu faciələri törədənlər cəzalarını çəkməlidir. Vaqif Xaçaturyanın həbsi ilə bağlı erməni təcavüzünə məruz qalmış azərbaycanlıların müraciəti mütləq layiqli cavabını tapmalıdır. Digər cinayətlarlar da aşkar olunaraq həbs olunmalıdır. Əgər belə olmasa, haqq-ədalət öz yerini tapa bilməz. Nə qədər ki cinayətkarlar cəzalandırılmayıb erməni təcavüzkarları susan deyil. Onlar yeni müharibələr həvəsindədir".





"Son günlərdəki hadisələr göstərir ki, ermənilər yenidən sərhədlərimizdə təxribat törətməyə, münaqişələri yenidən qızışdırmağa çalışır: "Sözsüz ki, bu yolda öz havadarlarının imkanlarından istifadə edirlər. Amma əldə olunan faktlar və bugünün reallıqları Azərbaycanın xeyrinədir. Ədalət bizim tərəfimizdədir. Ona görə də Məşəli sakinlərinin beynəlxalq ictimaiyyətə müraciət etməsini doğru hesab edirəm. Düşünürəm ki, beynəlxalq ictimaiyyət bu müraciətlərə etinasız yanaşmayacaq. Beynəlxalq təşkilatlar ermənilərin nə qədər ağır cinayətlər törətdiyini dünya ictimaiyyətinə bəyan edəcəklər. Məşəli sakinlərinin başına gətirilənlər hər bir azərbaycanlının fəlakətidir"-, deyə o əlavə edib.

***Ləman Sərraf***






# Separatizm avantürası: haraya qədər?

**Ermənistan və Qarabağ separatçıları bir reallığı unutmamalı, özlərini ağıllı aparmalıdır, əks halda...**




Hələ də təxribatçılıq missiyasını üzərindən atmaq fikrində olmadığını açıq-aşkar nümayiş etdirən Ermənistanın Qarabağda vəziyyəti gərginləşdirmək cəhdlərini davam etdirməsi ilə beynəlxalq aləmin diqqətini öz üzərinə yönəltməyə çalışır. Daha dəqiq desək, separatçılarla əlbir fəaliyyət göz önündədir. Halbuki Paşinyan artıq bir neçə dəfə Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu bəyan edib.

### Bu oyunbazlıqları Ermənistanın və Qarabağ separatçılarının Azərbaycana qarşı törətdikləri təxribatın yeni "tətbiqi" kimi də adlandırmaq mümkündür

Lakin hər şeyə rəğmən, təşkil edilən mitinqlərdən, aksiyalardan, Ermənistandakı diplomatik korpusların nümayəndələri ilə aparılan danışıqlardan, Laçın sərhəd-buraxılış məntəqəsinin qarşısına yük karvanı toplamaqdan və digər sirk tamaşalarından bir nəticə hasil olmadığını görən quldur rejimin təmsilçiləri indi də "humanitar fəlakət" adı altında Laçın sərhəd-buraxılış məntəqəsinə avtobuslarla "dinc" yürüş təşkil etmək fikrinə düşüblər. Saxta "acından huşugetmə" və s. tipli "məzlumkeş" oyunbazlıqları isə öz yerində...

Əslində, bu oyunbazlıqları Ermənistanın və Qarabağ separatçılarının Azərbaycana qarşı törətdikləri təxribatın yeni "tətbiqi" kimi də adlandırmaq mümkündür.

Yeri gəlmişkən, onu da qeyd edək ki, artıq Ermənistanın dəstəyi ilə separatçılar tərəfindən "yürüşün" təşkili üçün "Dəhlizin açılması uğrunda xalq hərəkatı" adlı qondarma "qurum" yaradılıb. Məqsəd isə Azərbaycanın Qarabağ iqtisadi rayonundakı ermənilərin Ağdam-Xankəndi marşrutu üzrə yardımı qəbul etmək istəmədiklərini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdan və bu istiqamətdəki hay-küyün artırılmasından ibarətdir.

Lakin rəsmi Bakı hələ ki, səbir və təmkin nümayiş etdirir və ermənilərin xarici havadarlarının səs-küylərinə də məntiqli, eləcə də rəsmi cavablar verir. Məhz bunun nəticəsidir ki, separatçılara "yardım" gətirən TIR-lar günlərdir sərhəddə gözləyirlər və heç vaxt da bu yolu keçə bilməyəcəklər. Bunu qarşı tərəf də çox gözəl anlayır.

Xatırladaq ki, separatçılar onların bu oyunbazlıqlarını müşayiət etmək məqsədilə "sülhməramlı" qüvvələrin komandanı, general-polkovnik Aleksandr Lentsova da müraciət ediblər. Amma Lentsov bu addımın 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun gəlmədiyini, daha doğrusu, həmin sənəddə yürüşlə bağlı heç bir müddəanın olmamasını əsas gətirərək buna razılıq verməyib.

### Elə bu fakt ermənilərin, eləcə də onların xarici havadarlarının Azərbaycanın suverenliyinə nə dərəcədə müdaxilə etmək niyyətlərindən xəbər verir

Onu da qeyd edək ki, Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu günlərdə keçirdiyi brifinqdə bildirmişdi ki, Ermənistan Qarabağa humanitar yüklər göndərəndə Azərbaycan ilə məsləhətləşməyib. Bu mənada Ermənistanın bölgəyə humanitar yardım göndərmək qərarı Azərbaycanın ərazi bütövlüyünə təhdiddir. Elə bu fakt ermənilərin, eləcə də onların xarici havadarlarının Azərbaycanın suverenliyinə nə dərəcədə müdaxilə etmək niyyətlərindən xəbər verir. Ancaq necə deyərlər, sən saydığını say, gör fələk nə sayır...

Əlbəttə ki, Ermənistanın məqsədi heç də Qarabağa humanitar yardım çatdırmaq deyil. Buna heç ehtiyac da yoxdur. Hətta qondarma rejimin saxta "prezidenti", yeni baş quldur Araik Arutyunyan bu günlərdə erməni TV-nə verdiyi müsahibəsində Qarabağda humanitar fəlakət yaşanmamasını bilvasitə etiraf edib! Qarabağdakı erməni separatçılardan digəri - Artur Osipyan da bildirib ki, Qarabağdakı ermənilərin "acından ölməsi" barədə məlumatlar həqiqəti əks etdirmir: "İnsanlar Qarabağda acından ölür kimi xəbərlər, sadəcə olaraq, şişirdilmiş məlumatlardır". Bu mənada, Ermənistanın və təcavüzkar ölkənin havadarlarının separatçıların "acından öldüklərini" iddia etmələri olduqca gülüncdür.



### Əbəs deyil ki, bu günlərdə Fransa QHT-ləri Ermənistan üzərindən qondarma konvoya əlavə TIR göndərib

Fakt budur ki, onların növbəti şouda əsas məqsədləri dünyada qəddar, güzəştə getməyən "azərbaycanlı" obrazı yaratmağa, bu yolla ökəmizə siyasi təzyiq göstərməyə, ölmüş "status" məsələsini yenidən diriltməyə, reinteqrasiyanı əngəlləməyə, Qərb dövlətlərini bölgəyə gətirməyə, həmçinin, danışıqlar prosesində müstəqil tərəf kimi Qarabağ separatçılarının iştirakına nail olmaqdır. Bütün bu oyunların başında isə sülhdən ağızdolusu danışan Ermənistan, bu təcavüzkarın vəkili rolunda çıxış edən, vəziyyətdən öz siyasi məqsədləri üçün yararlanmaq istəyən, müstəmləkəçilik siyasətini davam etdirən Fransa dayanır. Əbəs deyil ki, bu günlərdə Fransa QHT-ləri Ermənistan üzərindən qondarma konvoya əlavə TIR göndərib. Elə son günlər Fransanın ölkəmizə qarşı apardığı qarayaxma kampaniyasını daha da genişləndirməsi bunu bir daha sübut edir. Bu mənada, həmin "dinc" yürüşü fransızların Qarabağda növbəti fitnəkarlığı da adlandırmaq olar. Bütün bunlar öz yerində...

### Hər bir vəziyyətin sonu olduğu kimi, bu oyunbazlıqların da bir sonunun olacağı şübhəsizdir

Ancaq ortada digər məqamlar da var. Belə ki, ötən ayın sonunda Xankəndidəki qondarma rejimin saxta "parlament"inə yeni sədr - Ağdamın Gülablı kəndinin işğalına rəhbərlik etmiş, "Daşnaksütyun" fraksiyasından olan David İşxanyan seçilib. Bəzi mənbələr "dinc yürüş" avantürasının reallaşmasına onun daha çox canfəşanlıq göstərdiyini etiraf edirlər. Amma Ermənistanın və quldur rejimin bu kimi fitnəkarlıqlarına baxmayaraq, Azərbaycan sülh danışıqlarına sadiq olduğunu, eyni zamanda, öz prinsiplərindən, qəti və haqlı mövqeyindən geri çəkilməyəcəyini səbirlə nümayiş etdirməkdədir. Fəqət...

Fəqət hər bir vəziyyətin sonu olduğu kimi, bu oyunbazlıqların da bir sonunun olacağı şübhəsizdir. Hər halda söz Bakıdadır və qərarı da rəsmi Bakı verir. Ermənistan və Qarabağ separatçıları bir reallığı unutmamalı, özlərini ağıllı aparmalıdır, əks halda...

***Afət Tahirqızı***

# Rusiyalı danosçular...

### Gərək ki, bizim o tamaşada buna bənzər bir ifadə işlədilir: "ayə, burada adamı "baqaca qoyan" bilirsiniz nə qədərmiş... ləyənnən!"

Deməli, bu ilin yanvarında, ola bilsin ki, səfərbərliyə "boyun əymək istəməyib" aradan çıxan rusiyalı informasiya texnologiyaları üzrə mütəxəssis Avropaya çatdıqdan bir müddət sonra "Moy danos" adlı internet saytı açıb. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, sayt dizayn baxımından "Qosuslugi" kimi rəsmi rus saytlarına bənzəyir. Amma buna baxmayaraq, tətbiqin təsvirində istifadəçilərdən müşahidə edilən pozuntular barədə məlumat vermələri istənilib.

Sən demə, Rusiyadakı əksər ruslar elə bunu gözləyirmişlər. Belə ki, saytın varlığından xəbər tutan rusların çoxu danos yazaraq, ukraynadakı müharibəni və Rusiya prezidenti Vladimir Putini tənqid etdiklərinə görə qonşuları və ya tanışlarının məsuliyyətə cəlb olunmasını tələb ediblər. Təkcə onu deyim ki, fəaliyyətə başladığı altı ay ərzində saytda artıq beş mindən çox danos toplanıb.

Xatırladaq ki, ayıq-sayıq rusiyalı vətəndaşlar "xüsusi hərbi əməliyyat haqqında pis danışan" və ya "Putinin adını pisliyə çəkən" qonşuları və ya həmkarları haqqında yazırlar. Çoxları səfərbərlikdən və ya orduya çağırışdan gizlənənlər haqqında, onların kordinatları barədə də məlumat ötürürlər.

Yeri gəlmişkən, sayt tərtibatçısı mesajlardan gələn məlumatların heç yerə sızmayacağına söz verib deyə, saytın varlığından xəbər tutanlar ağına-bozuna baxmadan döşəyirlər gedir...



**Ağasəf Babayev**

# İngiltərə dağılsın ki, orada Cəmil Həsənli müəllimlik edir

*London İqtisad Universitetinin rəsmi saytında Qubad İbadoğlunun adı yoxdur*

Müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin maddi durumlarını "mühacir biznesi" ilə bir qədər də yaxınlaşdırmağa çalışdıqları faktdır. O da bəllidir ki, dəfələrlə dağıdıcı müxalifət partiya sədrləri müxtəlif şəxslərə 2500-3000 manata saxta partiya vəsiqələri satıblar. Sonradan İngiltərə, Fransa və Almaniyada bu kimi saxtakarlıqların üstü hüquq - mühafizə orqanları tərəfindən açılıb və "partiya üzv"ləri Azərbaycana deportasiya olunublar. Daha dəqiq desək, bir qədər əvvəl Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın müxalifət partiyasının keçmiş üzvlərini saxlayıb. Cinayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib.Cinayətkar dəstənin saxlanılan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Elə o zaman xaricdə təhsil alan azərbaycanlı tələbələrdən biri saxta partiya vəsiqəsi ilə mühacir həyatı yaşamağa çalışmış, lakin həbs edilmiş insanların acınacaqlı həyatını belə şərh etmişdir: "Pul atdıqları insanları intihar həddinə çatdıran, sonra arsız-arsız durub həmin insanların düşdükləri vəziyyətə görə iqtidarı günahlandıran bu siyasi işbazlar indi artıq qanun qarşısında cavab verməyə hazırlaşırlar. Almaniya polisinin müxtəlif şəhərlərdə keçirdiyi əməliyyatlar nəticəsində həmin şəbəkənin bir çox üzvləri saxlanılıb. İndi söz "biz saxta sənəd vermirik" deyən həmin partiya liderlərinindir. Əgər deməyə sözləri varsa". Lakin Əli Kərimli, Cəmil Həsənli, Tofiq Yaqublu və digərləri qeyri-qanuni əməllərinə görə ifşa olunsalar da, partiya üzvlərinə anormal hərəkətlərinə görə, izahat verməyiblər. Bununla da bir daha partiya üzvlərinə, ümumilikdə partiyanın nizamnaməsinə və əsasnaməsinə hörmətsizliklərini nümayiş etdiriblər. Bu azmış kimi utanıb çəkinmədən siyasətdə hörmət sahibi olduqlarını da iddia edirlər. Kimsə konkret cinayət əməlinə görə, həbs ediləndə erməni açıqları kimi bardaş qurub hay-küy salırlar. İddia edirlər ki, həbs olunan filankəs bilikli, savadılı şəxsdir. Hətta hay-küylərinə siyasi don geyindirib, bağırırlar ki, guya həbs edilən müxalifətçi dünyada tanınan elm adamı, professordur.



### London İqtisad Universitetinin saytında Q.İbadoğlunun adı yoxdur

Səthi araşdırma aprarkən aydın olur ki, ətrafında müdafiə sipəri çəkməyə çalışdıqları şəxs həqiqətən də cinayət törətmiş insandır. Son günlər Qubad İbadoğlu ətrafında dağıdıcı müxalifətin əsassız və mənasız şou yaratması deyilənlərə misal ola bilər. Artıq istintaq orqanları tərəfindən sübuta yetirilməkdədir ki, professor kimi təqdim etməyə çalışdıqlar "məşhur iqtisadçı" əslində, saxta pul kəsən və yayan mütəşəkkil dəstənin fəallarındandır. Çox da onu tanınmış iqtisadçı, London universitetinin müəllimi kimi təqdim edirlər. Hələ bilmək olmaz Q.İbadoğlu həqiqətən də sözügedən universitetdə müəllim olaraq çalışır, ya yox. Çünki London İqtisad Universitetinin saytında Q.İbadoğlunun adına və soyadına rast gəlmədik. Bu isə əsaslı suallar yaradır, yalan informasiyanı yaymaq nəyə və kimə lazımdır. Nədən Q.İbadoğlu London İqtisad Universitetinin müəllimi olmadığı halda, özünü universitetin müəllimi kimi təqdim edir? Yəqin ki, Universitet məsələyə hüquqi prizmadan aydınlıq gətirəcək.Maraqlıdır ki, bəzi dağıdıcı müxalif ünsürlər Qubad İbadoğlu kimi özləri haqqında həqiqətdən uzaq olan məlumatlar yayırlar, elə Cəmil Həsənli kimi.

### Cəmil Həsənli peşəkar yalançı statusu ala bilər

"Milli Şura"nın sədri Cəmil Həsənli hər fürsətdə yalandan uydurur ki, guya o İngiltərə Universitetində müəllim olaraq çalışır. Hətta bir qədər də dərinə gedərək uydurur ki, ona dünyanın bir neçə universitetindən dəvət gəlib, lakin o dəvətləri rədd edib. Yenə də sosial şəbəkələrə üz tutan "tarixçi" və "professor" yazır: "Mənim London Universitetinin Tarix Araşdırmaları İnstitutunda dəvətli tədqiqatçı kimi 2 illik səmərəli fəaliyyətimi nəzərə alaraq bu ilin iyul ayının ortalarında İnstitutun Elmi Şurası 2023/2024-cü dərs ilində mənə daha yüksək vəzifəyə - Baş Elmi İşçi vəzifəsinə təyin etmək barədə qərar verib". Məsəl var deyərlər, yalançının yanında, elə özü kimi yalançı şahid olar. AXCP sədri Əli Kərimli əqidə dostunun yalanlarına şərik olub və onu özünün təbirincə müdafiə etməyə çalışıb: "Həqiqətən Milli Şuranın sədri, dünyaca məşhur tarixçi professor Cəmil Həsənlini ötən ay dünyanın iki tanınmış universiteti işə dəvət edib. Professor Cəmil Həsənli rəsmi dəvətlərə baxmayaraq, nə London Universitetinə, nə də Harvard Universitetinə işləməyə gedəcək. Bakıda qalıb Milli Şuranın sədri olaraq çalışacaq".

Bu yerdə deyiblər, filan adam elə yalanlar danışır ki, "bişmiş toyuğun gülməyi gəlir". Dağıdıcı müxalifət məxluqları elə sözlər deyib, özlərini elə yekə-yekə təqdim etməyə çalışırlar ki, adamın matı-qutu quruyur. Düşünürsən ki, həqiqətən də bu məxluqlar ya özləri peşakar yalançılardır, ya da qarşısındakıları avam hesab edirlər. Lakin qanmırlar ki, cəmiyyət elə bir yüksək intellektə, bacarığa malikdir ki, nəyin yalan, nəyin düz olduğunu bilir. Bu baxımdan Cəmil Həsənlinin, Qubad İbadoğlunun yalanları özlərinin ifşası ilə nəticələnəcək. Daha doğrusu, onların adlarının universitetin rəsmi saytında olmaması dediklərinin yalandan başqa bir şey olmadığını göstərir. Bununla bir daha özlərini rüsvay və ifşa etmiş olurlar.

**İ.ƏLİYEV**

# Vasili Koltaşov: "Paşinyan Qərbin kuklasıdır və Ermənistanı xərcləyir"

Rusiyalı iqtisadçı, Yeni Cəmiyyət İnstitutunun direktoru, politoloq Vasili Koltaşov "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistanın yürütdüyü destruktiv siyasət və KTMT-yə qarşı iddiaları haqda maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Sizcə, KTMT missiyasının şərti Ermənistan-Azərbaycan sərhədində yerləşdirilməsi ehtimalı nə qədər yüksəkdir, Ermənistan nəyə bu qədər etiraz edir? Bu, ilin sonuna qədər baş verə bilərmi?***

- Rusiyanın təşəbbüslərinə qarşı çıxmaq Nikol Paşinyanın vərdiş etdiyi üslubdur. Onun Rusiyanın Ermənistan üçün dəyərli və faydalı heç nə təklif edə bilməyəcəyini hər cür göstərməyə çalışması Qərbdə oynanılan böyük oyunun tərkib hissəsidir. Paşinyan ancaq kiçik rol oynayır, erməni maraqlarından xərclənən material kimi istifadə edir. Ona görə də Ermənistan və Azərbaycanın şərti sərhədində KTMT missiyasının mümkün və ya qeyri-mümkün görünməsi ilə bağlı nəsə proqnozlaşdırmaq mənim üçün çətindir.

***- Ermənistanın KTMT-yə davam edən iddiaları barədə nə deyərdiniz? Bu, həmişə əlavə üstünlüklərə arxalanaraq İrəvanın başladığı növbəti şantaj kimi görünmürmü?***

- İrəvanın KTMT-yə iddiaları çox qəribə görünür. Yada salmaq kifayətdir ki, 2020-ci il hərbi münaqişəsi Paşinyanın guya erməni hərbçilərinin nəzarətində olan ərazilərin Ermənistana məxsus olması barədə bəyanatı ilə başlayıb. Beləliklə, hər iki tərəfin bütün mürəkkəb diplomatik məhdudiyyətlər sistemi məhv edildi və Azərbaycan fəaliyyət üçün formal əsas aldı. Bəs İrəvan başqa dövlətin ərazisini öz hissəsi hesab edirsə, KTMT bu vəziyyətə necə reaksiya verməlidir? KTMT Ermənistanı dəstəkləməkdən imtina etməyib, yalnız onun sərhədləri daxilində. İndi də Paşinyan bloku kəskin tənqid edir, Ermənistanı köməksiz göstərməyə çalışır, çünki onun üçün bloku mənəvi cəhətdən məhv etmək vacibdir. Bu birincidir.





İkincisi, bu, ona görə baş verir ki, Paşinyan heç bir halda erməni siyasətçisi deyil, sadəcə Qərbin kuklasıdır. Əgər Paşinyanın hərəkətləri nəticəsində Ermənistan nə vaxtsa sadəcə dağılacaqsa, o zaman baş nazir sağ-salamat Qərbə gedəcəyini gözləyir və orada bəyan edəcək ki, Ermənistan pis xərclənən material olub.

***- Ermənistan informasiya məkanında Azərbaycana qarşı nifrətin son dərəcə yüksək olduğunu nəzərə alsaq, münasibətlərin tam şəkildə normallaşmasının mümkünlüyünü qəbul edirsinizmi?***

- Ermənistanın informasiya məkanında Azərbaycana qarşı nifrətin yüksək olduğunu nəzərə alsaq, Paşinyan və havadarlarının yaxşı bildiyi bir sadə şeyi başa düşmək lazımdır. Onlar anladılar ki, erməni xalqı uşaq kimidir, əks halda Ermənistanda vətəndaş cəmiyyəti Paşinyanı 2020-ci ildə parçalamalı idi. Bu, onu macəraçı bir siyasətçi kimi məhv etməli idi. Amma bu baş verməyib, Paşinyan hakimiyyətdə qaldı. Bu, erməni xalqı üçün böyük faciə və eyni zamanda tarixin istehzasıdır. Paşinyan və onun sahibləri isə bütün bunlardan ibrət dərsi aldılar: Qarabağ uğrunda müharibəni uduzduqdan sonra hər kəsi günahlandırmaq olar. Əslində Qarabağ öz ərazilərini geri almış Azərbaycanındır və Ermənistanın Qarabağı itirməkdə Rusiyanı günahlandırması daha asandır. Yəni, bu, ağı qaradan ayıra bilmədiyi ilə hesablaşan hakimiyyətin erməni cəmiyyətinə münasibətdə uşaqcasına aldatmasıdır. Məsələn, rus cəmiyyətini erməni ilə müqayisə etsək, aydın olur ki, rus cəmiyyəti bütün filistizmi, eqosentrizmi və şəxsi zənginləşmə ilə məşğul olması ilə erməni cəmiyyətindən xeyli üstündür.



***- Erməni cəmiyyətində anti-Rusiya əhval-ruhiyyəsinin artması fonunda Ermənistan-Rusiya münasibətlərinin gələcək inkişafını necə görürsünüz?***

- Rusiya-Ermənistan münasibətləri çətin olacaq, heç bir irəliləyiş gözləmək olmaz, hətta üfüqdə belə. Paşinyan oyunu özünəməxsus şəkildə oynadı. O, 2020-ci ildə təhlükəli vəziyyətə düşdü və bundan sonra Rusiya ilə işləməyə hazır olduğu görüntüsü yaratmağa başladı. Və deyəsən, rus diplomatları onun nəhayət siyasətçi səviyyəsinə yüksəldiyinə qərar veriblər. Məlum oldu ki, bu, aldatma idi. İndi Paşinyan özü nümayiş etdirir ki, hansı tərəfdə oynayır, ona görə də Rusiyada ona inam yoxdur. Çox güman ki, Paşinyan tamamilə düşmən mövqeyə malik, Rusiya Federasiyasına problemlər və Qafqazda münaqişə yaratmağa çalışan dövlət başçısı kimi qəbul edilir ki, bu da Moskvanın maraqlarına qətiyyən uyğun gəlmir.

***Tərcümə - Elçin Bayramlı***

# Bütün xəstəliklərin təməli - yod çatışmazlığı

**Dünyanın 130 ölkəsində ciddi sağlamlıq problemi hesab edilən yod çatışmazlığı uşaqlarda inkişafı ləngidir, böyüklərdə isə zob və döş xərçənginə səbəb olur. Yod əksikliyi orqanizmdə erkən yaşlarda başlayaraq heç bir əlamət hiss etdirmədən inkişaf edir, zob və qalxanabənzər vəzin xəstəliklərinə səbəb olur.**

Qeyd edək ki, insan orqanizmi başqa beyin olmaqla bütün orqanların qaydasında işləməsi, inkişaf etməsi üçün yoda ehtiyac duyur. Xüsusilə hormonların fəaliyyətində əvəzsiz hesab edilən yod orqanizmdə çatışmasa ciddi xəstəliklərə yol açır. İnsan orqanizmi yod istehsal edə bilmir, buna görə də kənardan qəbul etməsi vacibdir. Biz adətən yodu duzlardan və yodlu torpaqlarda yetişdirilmiş qidalardan qəbul edirik. Dəniz məhsullarının tərkibində də bol yod var. Orqanizm yod əksikliyini həzm yolu ilə qəbul etməlidir.

Statistikaya görə, dünyada 1,88 milyard nəfər, o cümlədən 241 milyon məktəbyaşlı uşaq yod çatışmazlığından əziyyət çəkir. Sutkalıq yod dozası yaşı 6-dək olan uşaqlar üçün 90 mkq, 6-12 yaş arasındakı uşaqlarda 120 mkq, yaşı 13-dən yuxarı olan və yetkin insanlarda 150 mkq təşkil edir. Hamilə və laktasiya dövründə olan qadınlar isə sutkada 250 mkq yod qəbul etməlidirlər. Təəssüf ki, yer kürəsi əhalisinin təxminən üçdəbir hissəsi təbii yodun mövcud olmadığı yerlərdə yaşayır. Yod çatışmazlığına qarşı aparılan ən geniş yayılmış mübarizə strategiyası duzun yodlaşdırılmasıdır və hazırda dünyanın 120 ölkəsində həmin üsuldan istifadə olunur. Bir çox ölkələr bu işdə uğur qazanıb. Qeyd edək ki, süd məhsulları da yod mənbəyi hesab edilir. Odur ki, süd verən heyvanların yem məhsullarının yodlaşdırılması da əsas məsələlərdən biridir.
















Yod çatışmazlığını halsızlıq, dəri quruluğu, saç tökülməsi, dərinin sərtləşməsi, qəbzlik, soyuğa dözümsüzlük, menstural tsiklin pozulması, saç və dırnaqlarda qırılmalar, piylənmə, yaddaş problemləri, diqqət pozuqluğu, depressiya, isterik hərəkətlər, ürək və ağciyər yetməzliyi kimi əlamətlərlə anlamaq olar.

Xüsusilə hamilə və laktasiya dövründəki analarda yod əksikliyi ciddi problemlərə yol aça bilər. Hamilələrdə yod ehtiyacı iki dəfə artıq olur, əgər anada ciddi yod əksikliyi varsa bu yarımçıq hamiləliyə, erkən doğuşa, anormal uşaq doğmağa və doğulan uşaqda anadangəlmə qalxanabənzər vəzin xəstəliklərinə səbəb ola bilər. Bundan əlavə ana yod ehtiyacını lazımı qədər təmin edə bilməsə bətnindəki körpəsi zehni problemlərlə doğula bilər. Uşaqlarda yod çatışmazlığı yaddaş və əqli problemlərə yol açır. Yaşının nəsilartırma mərhələsində olan qadınlarda yod çatışmazlığı hamiləliyin baş tutmamasına təkan verir. Hamilələrdə yod tələbatı döl əsasən 2-3 aylıq olarkən rastlanır, bu aylarda ana bətnindəki körpənin beyin inkişafı demək olar ki, tamamlanır.

Yod təminatını daha çox yodlu duzlardan alırıq, bundan əlavə dəniz məhsulları, pendir və qatıq, yumurta, tərəvəzlər də yod mənbəyidir. Bir kasa qatıq gündəlik yod ehtiyacının təxminən 60%-ni , 1 stəkan süd 40%-ni , 1 yumurta 20%-ni təmin edir. Meyvələrin tərkibində az olan yod karolyokun (xurma) və çiyələyin tərkibində nisbətən çoxdur.

İspanaq, soya paxlası, şalğam, pazı, balqabaq, quru paxla və sarımsaq kimi tərəvəzlərin yod nisbəti yüksəkdir. Bu tərəvəzləri eyni zamanda vitamin qaynağı və antioksidan olaraq istehlak edə bilərsiniz. Qidalardakı yod miqdarı yetişdikləri torpağın yod nisbətinin az və ya çox olması ilə əlaqədardır. Balıqlar (xüsusilə, duzlu su balıqları ) yod baxımından olduqca zəngindir və yod qaynağı olaraq istehlak edilə bilər. Yüksək yod faizi olan yodlu balıqlar arasında ilk sıralarda ton balığı, vitinq, soyuq su və dərin dəniz balıqları yer alır. Krevet və digər qabıqlı dəniz canlıları da yod çatışmazlığının qarşısını almaq üçün istifadə edilə bilər.

1 qram yodlu duzdakı yod miqdarı 70 mikroqramdır, yəni orqanizm hər gün 2 qram yodlu duz qəbul etsə gündəlik yod ehtiyacını ödəmiş olur. Yodlu duz qəbul etdiyimiz müddət ərzində bədən tələbatını qarşılayır, amma yodlu əvəzində sadə duz istifadə etdiyimiz gündən etibarən bədən yenə yod çatışmazlığı yaşayacaq. Çünki orqanizm özü yod istehsal edə və depolıaya bilmir, bu səbəbdən də gündəlik qəbul edilməsi vacibdir. Yodlu duz nəm olmayan sərin yerdə, şüşə qabda saxlanmalıdır. Bundan əlavə, yodun uçmaması üçün yeməyə duzu bişib qurtardıqdan sonra və ya süfrəyə verərkən əlavə edilməlidir. Yemək qaynayanda duzun tərkibindəki yod təsirini itirir.

Etiraf edək ki, mağazalarda yodlaşdırılmış duz adı ilə texniki duz satılır. Ölkədə yodsuz duzun satışı qadağandır, hətta qanuna görə heyvanlara yem məqsədilə verilməsi də qadağandır. Lakin supermarketlərdə bu cür yodsuz duzlar satılır. Bu duzlar xüsusilə böyük şəhərlərdə çox yayılıb. Duz alarkən buraxılma tarixi və yararlılıq müddətinə diqqət yetirilməlidir. Çünki əsl duzda bu yazılar döymə üsulu ilə vurulur, kustar üsullarla hazırlanan duzlarda isə adi yazı ilə yazılır.

Qeyd edək ki, tərkibində 99,8 faiz natrium-xlorid olan duz kefiyyətli sayılır. Bunlar ekstra duzlardır və beynəlxalq tələblərə cavab verir. Ölkəmizdə 2001-ci ildə qəbul olunan "Duzun yodlaşdırılması haqqında" qanunun 8.3-cü maddəsinə əsasən, yodlaşdırılmamış duzun qida və yem məqsədilə istehsalı, satışı və ölkəyə daxili qadağan olunub. Bu MDB məkanında yeganə qanundur və effektiv olacağı elə qəbul edildiyi zaman hiss edilirdi. Bu səbəbdəndir ki, qanunun qəbulundan sonra Azərbaycanda bu xəstəliklərin miqdarı dəfələrlə azalıb. Azərbaycanda yodlaşdırılmış duzdan istifadə edən əhalinin faiz göstəricisi 2001-ci ildə 41 faiz idisə 2007-ci ildə bu faiz göstəricisi 77 faiz oldu.

***Lalə Mehralı***

# Axşamüstü, bulaq başı, incəbelli, səhəngli qız...

**Çox təəssüf ki, bizim gəncliyimizədək səhənglər qızların çiynindən xeyli vaxt idi ki, enmişdi. Səhəng də, incəbelli qızların axşamüstü bir yerə toplaşıb bulaq başına getmələri də bizim üçün bir uşaqlıq xatirəsidir...**

Yayda kəndə gedərdik. Nənəgildə, bibigildə yay uzunu mənalı günlər keçirərdik. Elə səhənglə bağlı xatirələrim də o mənalı günlər toplusundandır.

Bir neçə gün əvvəl işə gələrkən bir qadının marketdən çıxıb əlində su dolu 10 litrlik plastik qabı çiyninə qaldırması ilə həmin səhəngli günlərə qayıtdım. Bakının isti küçələrindən bir anlığa kəndlərimizin axşamüstü gözəl görüntüsünə, bu görüntülər fonunda isə gənc, incəbelli qızların çiyinlərində səhəng, ahəstə gülüşlə bulaqdan qayıtması mənzərəsinə qayıtdım...

Bir vaxtlar bu zərif çiyinlər misdən, gildən hazırlanmış səhəngləri necə də zərif şəkildə daşıyırdı. Kənardan bu zərif qızların bu ağır səhəngləri necə daşıması da adama qəribə gəlirdi. "Görəsən buna necə gücləri çatır, bu qab onların çiyinlərin əzmir?" kimi fikirlər də xəyalımıza gəlirdi. Elə bununla bağlı nənələrə, bibilərə suallar da verirdik. Onlar isə səhəng haqqında o qədər gözəl məlumat verirdilər ki... Səhəng barədə aldığım məlumatlardan yaddaşımın bir küncündə qalanları indi də xatırlayıram.

Nənəmə sual verirdim ki, ay nənə, nə üçün qızlar suyu vedrədə, çaydanda daşımırlar? Bu səhəngi necə qaldırıb çiyinlərinə qoyurlar? Nənəm də cavabında deyirdi ki, ay bala, səhəng vedrədən yüngüldür. Vedrədə su daşımaq adamın qamətini əyər, lakin səhəng əyməz. Çünki onun ağırlığı çiynin ortasına düşür və orada sanki iki hissəyə bölünür. Çiynin arxasına və önünə. Ona görə də nə ağırlıq hiss olunur, nə də qamətə zərəri olur.

Nənədən su istəyəndə də səhəngdən verərdi. O vaxtlar kəndlərimizdə bütün evlərdə soyuducu yox idi. Suyu səhəngdə saxlayırdılar. Buz kimi qalırdı. Adam içəndə dişləri qamaşırdı. Nənəm deyirdi ki, səhəng suyu sərin saxlayır. Çünki səhəngin hazırlandığı material misdən və gildən olur ki, onların hər ikisi suyu sərin saxlamaq qabiliyyətinə malikdir. Həm də səhəngdə günlərlə su qala bilərdi, lakin o əsla köhnəlməzdi.

* * *

Qarşımda ağır addımlarla irəliləyən qadının çiynindəki plastik qab, içindəki su haqqında nə söyləmək olar bəs?.. Bu fikirlərlə qadına baxır və düşünürdüm ki, çox təəssüf. Təəssüf ki, nə o qab səhəng ola bilər, nə də içindəki su kəndlərimizin əlini bir dəqiqənin tamamınadək saxlaya bilməyəcəyin buz kimi bulaqlarının suyu ola bilər.

Bəzən eşidirik ki, bu plastik qablarda satılan sularla bizi yamanca aldadırlar. O suları elə burada-Bakıda krantlardan doldurub üzərinə hansısa rayonun, kəndin məşhur bulaqlarının adını yazıb bizlərə sırıyırlar.

Suyu alırsan, ağzını açırsan və qəribə bir qoxu ilə rastlaşırsan çox vaxt. Hələ həmin su o plastik qabda bir neçə gün qalarsa, gör onu istifadə etmək olar? İçərisində qəribə bulanıqlıq gözə çarpır. Qoxusu da ki, Allah uzaq etsin.

Qiymətinə gəlincə isə, su elə bir qiymətə satılır ki, o, susuzluğu əsla keçirmir. Çünki qiyməti od tutub yanır, bu yanğı da onu alanı yandırır. 0,5 su 70 qəpikdir, hələ bu yaxınlarda 1 manata da almışdıq. Gətirib baxdıq ki, vaxtı da keçib, qaytarıb verdik özlərinə, sözümüzü də dedik.

İndi şəhərimizdə əməlli-başlı su alverçiləri yaranıb. Hələ universitet bufetlərində suyun qiymətini biləsiniz. Fürsətçilər tələbələri soyurlar su ilə. Bilirlər ki, oradan çıxa bilmirlər, almağa məcburdurlar, qiymətini qaldırırlar. Yazıq tələbə də bu sulardan alır, içir. Lakin su da su olardı kaş...

* * *

Elə bu arada kəndlərimizin buz bulaqlı suları xəyalımda canlanır. Tərtəmiz, göz yaşı kimi şəffaf, saf suları. İlin dörd fəsli durmadan axıb gedən, səndən onu içmək, daşımaq qarşılığında heç nə istəməyən bulaqları xatırlayıram. Ulu Yaradanın insanlara bəxş etdiyi bu bulaqların su kimi dəyərli nemətini indi alverə çevirənləri görəndə "bəs o bulaqların haqqını kim ödəyəcək?",- deyə düşünürəm.









Fikirləşəndə ki, o bulaqlar təmizliyi, təravəti, saflığı haradan alırmış görəsən, əli səhəngli, incəbelli qızlar gəlir xəyala. Bulaqlar, sözsüz, paklığı, təmizliyi, gözəlliyi o qızlardan alırdılar. Bulaqlar sanki bir gənc oğlan, qızlar isə onların sevgilisi idi. Bulaqlar bu qızların hər axşamüstü yolunu gözləyirdi. Onların gəlişi ilə çağlayırdı, axırdı, tükənmək bilmirdi. Onların paklığı ilə paklaşırdı...

Oğlanlar isə bilirdilər ki, axşamüstü qızların bulaq başına getmək vaxtıdır. Ona görə də özlərinə qız bəyənmək üçün onların toplaşdığı yerə yaxın və ya bulaq yollarında gözləyirdilər. Elə ki, qızlar gəlib oradan keçir, onlar da bəyənir, qızlara söz göndərir, "hə" cavabı alanda elçilərini yollayırdılar. Bu incəbelli, çiyni səhəngli qızlar isə eşidirdik ki, bir evin gəlini oldu. 4-5 il sonra bu gəlin bulaq başına öz qızı-əlində kiçik səhəngi olan balası ilə gələrdi. Ona bulağın yolunu öyrədərdi. Su daşımağın qaydasını, səhəngin necə aparılmasını, doldurulmasını, ağzının tıxacla qapanmasını, çiyinə qaldırılmasını öyrədərdi. İllər ötər, bir də baxardın ki, o kiçik qız bulaq yollarındaca gənc qıza çevrilib, sevib-sevilir...

Beləliklə, səhəng həm də əsrlərin sevgisinin şahidi bir əşyadır. Onun içərisində daşınan su neçə-neçə gənclərin qovuşmasına, sevgililərinin bir ailədə birləşməsinə şahidlik edib. Bəhs etdiyimiz bulaqlar neçə-neçə gənc qız-oğlanın görüş yeri olub. Onlar bulaq başında bir-birinə vəd veriblər, su haqqı ilə and içib su kimi pak hisslərlə bir-birinə yanaşıblar. Bir-birinin yolunu su yolu kimi gözləyiblər. Şairə Sədaqət Dilqəmqızının misralara naxışladığı kimi:

Dayan sözüm var ,  
Səndə gözüm var ,  
Demə dözüm var ,  
Ay səhəngli qız .  
Bahar-barım ol,  
Ol, dildarım ol,  
Getmə ,yarım ol,  
Ay səhəngli qız.  
Gülüm gül yanaq,  
Gəl nişanlanaq,  
Qol qanadlanaq,  
Ay səhəngli qız.  
Sazım naz öyü,  
Bilsin qız öyü,  
Al bu üzüyü,  
Ay səhəngli qız.  
Sonra elçilər,  
Qapnıza gələr,  
Toymuzu dilər,  
Ay səhəngli qız.

Bəli, bu pak sevda, ülvi hisslərlə minlərlə toy olub. Xalqımız əsrlərdən bəri gözəl ailələrin təməlini qoyub. Bulaq başları, səhənglər öz təmizliyini, saflığını həmin ailələrə verib. Nəticədə ailə dəyərlərimiz formalaşıb və o dəyərləri biz uzun illər qoruyub saxlaya-saxlaya bu günlərə gətirib çıxarmışıq.

* * *

O səhənglər sonralar atıldı evlərdəki zirzəmi künclərinə. O səhənglər ta nə əllərə alındı, nə çiyinlərə qaldırıldı. Nə içi illərlə su gördü, nə dabanı bulaq başına dəydi. Müasirləşdik. Müasirləşdiksə də səhəngləri unutduq. Bulaqların məcrasını dəyişib yerini başqa bir məkana çevirdik. Sanki kəndlərimiz də donunu dəyişdi. Yollar asfaltlandı, qoyun-quzu səsi azaldı, təndirlərin qapısı bağlandı. Hər kəs müasirliyə qovuşdu. Çörəyi də çörək çexlərində bişirtməyə başladılar. Suyu da çəkib gətirib evlərinə qoydular. Rahatlıq arxasınca gedə-gedə bir də baxdıq ki, sağlamlığımız da əlimizdən gedib. Çünki evlərə qapandıq. Bir addım atıb nə bulağa endik, nə də iki çörəyi təndirə vurduq. Evin içindəcə divanın üstündə əlimizdə pultlar başladıq televiziya kanallarında seriallar axtarmağa. Daha sonra da həyatımıza internet daxil oldu, başladıq sosial şəbəkələrdə gəzməyə. Bulaqlardan fərqli olaraq sosial şəbəkələr bizi buraxmadı. Bulaq başındakı axşam çağları sosial şəbəkələrdə sübh çağını gətirdi. Qaldıq sosial şəbəkələrdə. İlişdik sanki, qopa bilmədik.

Qopmadıqca da bulaqlardan, səhənglərdən, kədlərimizin axşamüstü gözəl mənzərələrindən uşaq qaldıq. Biz əslində keçmişimizdən uzaqlaşdıq. Özümüzdən uzaqlaşdıq.

* * *

Qadın bir az sonra su dolu plastik qabı çiynindən endirdi. Çünki o səhəng rahatlığında ola bilməzdi. İçərisindəki su səhənglərin tutduğu qədər, özü isə səhəngdən yüngül olsa da, qadının çiyninə ağırlıq verirdi. Qadın onu yerə endirib əlinə aldı.

Baxdıqca düşünürdüm ki, bu çiyinlərə ağırlıq edən o plastik qab deyil bəlkə də. İtirdiyimiz illərdir. İtirdiyimiz adət-ənənələrdir. O günləri geridə qoyan bu günlərdir. Bu günlər ki, o səhənglərdəki suyu heç vaxt bu plastik qabın içərisindəki su əvəz edə bilməyəcək. O çoxu qurudulan, yeri də qalmayan bulaqlar yalnız xatirə olaraq anılacaq. Nə yenidən o axşam çağları olacaq, nə o incəbelli qızlar, nə əllərində səhəng, nə də onların yolunu gözləyən oğlanlar...

Elə bütün bunların üzərindən xətt çəkdiyimiz üçün də yeni bir aləmə düşmüşük. Plastik qabın içərisindəki su kimi həyatımızı özümüz öz əlimizlə bulandırmışıq. İndi o su kimi, bulaq başlarındakı sevda da qalmayıb. Əhd-peyman ozamankı kimi deyil. Dəyişir, tez-tez dəyişir: qızların geyimi kimi, oğlanların geyimi kimi... Qızların gülüşü kimi, oğlanların danışığı kimi... Qızların saçı kimi, oğlanların qısa şalvarları kimi... qızların ucadan qəhqəsi kimi, oğlanların şit zarafatı kimi...

* * *

Axşamüstü, bulaq başı, incəbelli, səhəngli qız... Nə yaxşı, bu mənzərəni seyr edə bilmişik ki, bu gün yazıb görməyənlərə çatdıra bilirik. Bəlkə də kimlər üçünsə maraqlı deyil, lakin biz nəslin ən gözəl xatirələr toplusudur. Hələ bugünkü axşam çağları, "bulaq" başları, belləri əməliyyatla incəldilən, küçədə plastik qablardakı suyu ağzına dayayıb içən gənc qız-oğlanların fonunda o qədər heyifsilənəcək xatirələrdir ki, bunlar...

***Mətanət Məmmədova***

# Satqının Vətəni olmur

Bu gün heç kəsə sirr deyil ki, Azərbaycanın bir sıra dağıdıcı müxalifət partiyaları bəzi maraqlı Qərb dairələrinin çirkin maraqlarını yerinə yetirməyə can atırlar. Bu partiyalar öz "mübarizəsini" yalnız qara piar kampaniyalarının əsasında qurur, yalan rəqəmlər yazmaqla divident qazanmağa çalışaraq çəkinmədən xalqın adından danışır, özünü şişirtməyə çalışırlar. Təəssüf ki, belələri siyasi mübarizə anlayışını yalnız qeyri-sivil metodların arasında axtarır, əksər hallarda ölkənin qanunlarını pozmağı siyasi mübarizə ilə sinonimləşdirir. Hətta bir çox məqamlarda öz keçmişini, indisini, atdığı addımları, etdiyi səhvləri belə unudur, ölkənin, millətin düşmənləri ilə isti münasibətlər quraraq "dostluq sazişləri" bağlayır, ölkənin inkişafının təminatı olan, demokratik cəmiyyətin qurulması uğrunda illər uzunu planlı iş aparan, hüquqi dövlət quruculuğu sahəsində əsaslı islahatlar həyata keçirən Azərbaycan hakimiyyətinə qara yaxmaqdan əl çəkmirlər. Öz təbliğatını gördüyü və ya görəcəyi işlərlə deyil, hakimiyyətin üstünə böhtan atmaq "planı" üzərində quran isa qəmbərlər, əli kərimlilər və onların ətrafı bir anlıq geriyə çevrilib öz ətraflarına diqqət yetirsələr, nəyin şahidi olacaqlarını yaxşı bilərlər. Amma onlar geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talanetmə faktları və digər günahları onların gözünə görünə bilər. Çünki bu satqınlar silah gücü ilə torpaqlarımıza sata-sata villalara, biznesə, sərvətə sahib oldular. Və bu gün ...



### Əli Kərimlinin əsassız "don kixotluğu" haraya kimi...

30 ildir ki, "müxalifət" adı ilə yol gedənlər bu gün sosial söyüş müxalifəti olmaqları ilə dövlətə, xalqa, Azərbaycanın uğurlu inkişafına, dünyada belə bir qələbənin əldə olunması mümkün olmadığı halda Azərbaycan 30 il ərzində mənfur erməni təcavüzkarlarının 44 gün ərzində ərazi bütövlüyünün, ədalətin bərpa olunmasına nail olaraq tam Qələbə qazanaraq - Qarabağ Azərbaycanımıza qovuşmağımıza qara yaxanlar nə vaxta kimi?. Erməni dəyirmanına su tökənlər elə zənn edirlər ki, bu əxlaqsızlıqları və böhtanları ilə xalqın dəstəyini əldə etməyə çalışsalar da, xalq artıq belə satqınları nəinki qəbul edir, onların ölkəmizdə yaşamamasını tələb edirlər.

Əgər oxucuların yadındadırsa, radikalların sosial şəbəkə qrupuna daxil olan şəxslər belə bir informasiya yaymışdılar ki, guya Azərbaycana məxsus olan 30 ton qızıl və 4 milyard dollar pulu daşıyan gəmi Xəzər dənizində batıb. Xəbəri ilk olaraq, Əli Kərimlinin dezinformasiya kanalizasiyasının baş kollektoru Qənimət Zahid yayıb. Budur, səviyyəsizlik, əxlaqsızlıq və nəhayət, satqınçılıq, savadsızlıq. 21-ci əsrdə belə bir şey mümkündürmü ki, gəmi batsın və Qənimət Zahiddən başqa heç kim ondan xəbər tutmasın? Bu, təəccüb də doğurmur. Çünki erməni üfunəti verən AXCP sədri Əli Kərimlinin, Qənimət Zahidin "don kixotluq" etməsi bir daha onların nə qədər mənəviyyatsız, satqın olduğunu göstərir. Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla Yunus, Xədicə İsmayıl, Qənimət Zahid, Sevinc Osmanqızı, Vidadi İskəndərli və bu kimi mənfurlar 30 ildir ki, ölkəmizin beynəlxalq aləmdəki artan nüfuzundan qaşınmaya düşərək beynəlxalq aləmdə haqqımızda mənfi rəy formalaşdırmaq üçün min bir fitnə-fəsada əl atır, ağlagəlməz yalanlar, böhtanlar uydururlar. "Sapı özümüzdən olan balta"lardan istifadə edən erməniyə "dayı" deyən Paşinyan sifətli bu vicdanı olmayan ermənipərəst qüvvələrin çirkli pulları və anti-Azərbaycan qüvvələrin tula payı alan bu mənfurlara Azərbaycanın o çörəyi haram olsun! Ancaq satqınlar - vidadilər, sevinclər, ariflər... ermənilərin yanında olduqlarını açıq şəkildə bəyan edirlər. Ancaq nə edirlər etsinlər, xalq onların yerini göstərib: tarixin zibilxanasıdır.

### Qurban Məmmədov: "Əxlaq əsl kişiyə aiddir, daha Əli Kərimli kimi əxlaqsıza yox! Bu, gədənin biridir"

Çox qəribədir. Bu siyasi cameədə olanlar ancaq bir-birilərinin sirrini elə açırlar ki... Elə "siyasi mühacir" həyatı yaşayan Qurban Məmmədovun dediyi kimi: "Əxlaq əsl kişiyə aiddir, daha Əli Kərimli kimi əxlaqsıza yox! Bu, gədənin biridir. Özünü başqa əxlaq sahibi kimi aparır. Bütün dünyaya sübut etmişəm ki, 28 ildir Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayıl bu xalqa tələn edir ki, günahkar xalqdır. Ayıq olun, bunu bilin. Zaman gələcək Əli Kərimli, arxivlər açılacaq. Sən kimsən, Elçibəyə nələr eləmisən, nə təbliğat aparmısan, Kələkidən Bakıya necə gəlmisən, bunların hamısını ortaya qoyacağıq. Eyni ilə S.Osmanqızı, onun dədəsinin goru çatlayır indi. Bu övlad atasına hər gün lənət oxutdurur. 40 minlik kanal bağlatdıranda oxudu ki, guya adını demədiyi bir tələbə buna yazıb ki, dekan buna AzeriFreedomu layk edin, Osmanqızının kanalını isə dislayk edin. Budur, yalan, tərbiyəsizlik? Hanı sübut? Əli Kərimliyə nə qədər yalanacaqsan?". Bax, budur satqınların formalaşmış siması. Və bu satqın və şərəfsizlər bilməlidir ki, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil, kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq hər kəs törətdiyi əməllərin cəzasını qanun çərçivəsində almalıdı və alacaq da!

Bu yerdə mərhum Əbülfəz Elçibəyin söylədiyi "Əli Kərimli mənim yox, millətin düşmənidir" deməsi, bir daha onun bəd əməllərini millətə, xalqa və dövlətə xəyanət adlandırıb. Və bu gün ümummilli məsələləri öz şəxsi ambisiyalarına qurban verən Ə.Kərimlinin gəncləri mitinqə çağırması, onun Azərbaycan gəncinin qanına susamış əsl düşmən və Vətən xaini olduğunu göstərir. Artıq Əli Kərimli və onun tərəfdarlarının Azərbaycanın milli maraqlarına zidd, erməniperəst fəaliyyətinə son qoymağın vaxtı çoxdan çatıb. Cəzasızlıq isə, onun dövlətçilik maraqlarımız qarşısında daha da qudurlaşmasına səbəb olur. Ə.Kərimli kimi şəxsi ambisiyasını güdən populistlərə, avantüraçılara və antimilli ünsürlərə bundan sonra da meydan verməməli və onların barəsində sərt ölçü götürülməlidir. O, həbs olunmalı, layiqli cəzasını almalı, ən yaxşı halda isə, ölkə hüdudlarından çıxarılmalıdır. Belələrinə Azərbaycanda yer yoxdur!

**Rəfiqə HÜSEYNOVA**

## "ÜST elektron siqaretlərin satışını məhdudlaşdırmağı tövsiyə edir"

### QURUMDAN AÇIQLAMA VERİLDİ

"Elektron siqaret - tərkibində nikotin və aromatizatorlar olan buxar əmələ gətirən bir cihazdır. Elektron siqaret buxarının tərkibində tütün tüstüsündə olan təhlükəli kimyəvi maddələr var. Elektron siqaretin buxarı kiçik hissəciklərdən ibarətdir, o, tənəffüs yollarına dərindən nüfuz edir və dağıdıcı təsir göstərir, ürək və ağciyər xəstəlikləri riskini artırır, həmçinin, ağız boşluğunda bir sıra xəstəliklərin yaranmasına səbəb olur". Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzindən SİA-ya verilən məlumata görə, elektron siqaret istənilən halda tütünçəkməni dəstəkləyir, üstəlik, onun tərkibindəki kimyəvi maddələr bəzi xəstəliklərin yaranmasına da zəmin yaradır: "Aparılan tədqiqatlar göstərir ki, bəzi elektron siqaretlərin tüstüsündə toksik maddələrin səviyyəsi hətta siqaret qədər olur, çünki onun tərkibində kanserogen maddələr var. Həmin zərərli maddələrin hüceyrədaxili təsiri ola bilər və onlar da xərçəng xəstəliyinə səbəb olan amilləri gücləndirə bilər.




Həmçinin, eyni elektron siqaretdən şərikli istifadə, yəni bölüşdürülərək və ya növbə ilə çəkilməsi infeksiya mənbəyi rolu oynaya, o cümlədən vərəmin yayılmasına səbəb ola bilər. Elektron siqaretlərin kartricləri ilə əlaqədar da təhlükəli məlumatlar var. Bəzi uşaqlar bilmədən onu udaraq toksik təsirə məruz qalırlar.

Hazırkı tendensiyalar göstərir ki, bəzən hətta heç vaxt çəkməyənlər belə bu məhsulların istifadəsinə başladıqdan sonra asanlıqla siqaret və digər tütün məmulatlarına keçir. Tütünçəkmə kimi zərərli vərdişdən qurtulmaq istəyən insan elektron siqaret əvəzinə, sağlam davranış variantlarını seçməlidir. Məsələn, idmanla məşğul ola və ya meditasiya edə bilər. Əsas məsələ - insanın fərdi motivasiyası olmalı və zərərli vərdişə yox deməyi bacarmalıdır.

Ümumdünya Səhiyyə Təşkilatı elektron siqaretlərin və digər nikotin çatdırılma sistemlərinin satışını məhdudlaşdırmağı tövsiyə edir. Elektron siqaret və qızdırılma nəticəsində istehlak edilən (buxarla) tütün məhsullarının təşviqi, onları daha təhlükəsiz və tütünçəkmədən imtina vasitələri kimi qələmə verməsi bu kimi məhsulların marketinq üsullarından biridir. Tədqiqatlar bu növ məhsulların təhlükəli olduğunu və sağlamlığa ciddi zərər yetirdiyi hallarının artmasını qeydə alır.

Bundan başqa, 2017-ci ildə "Azərbaycanda tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Qanun"un qəbul edilməsi ilə ölkədə aparılan tütünlə mübarizə tədbirləri daha da gücləndirilib. Bütün növ qəlyanlar və elektron siqaretlər də bu qanunun təsir dairəsində tütün məmulatlarına bərabər tutulub".

**S. Hüseynli**

# "Ermənistandan istifadə edilərək, Cənubi Qafqazda gərginlik saxlanılır"



Həm keçmiş münaqişə vəziyyətilə, həm də hazırkı vəziyyətlə bağlı dünya ölkələrində aydın təsəvvürlər mövcuddur. Ermənistan ötən əsrin 80-ci illərinin sonundan başlayaraq, Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməyə başladı. Bunun ardınca isə Azərbaycan torpaqlarının işğalına başladı və 30 il ərzində torpaqlarımızı işğal atında saxladı. Biz hər zaman baş verənlərin mahiyyətinin məqsədli şəkildə təhrif olunduğunu gördük. Əgər Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayırdısa, burada başqa dövlətlərin yanlış təsəvvürləri necə formalaşa bilərdi? Ermənistan Azərbaycan ərazisində yaşayan ermənilərin guya hüquqları və təhlükəsizlikləri ilə bağlı problemlərin olduğunu iddia edirdi. Çox təəssüf ki, dünya dövlətləri bu məsələlərlə bağlı Ermənistana öz iradlarını bildirmirdi. Ermənistanın bu davranışları bütövlükdə təhlükəli vəziyyət yaradırdı". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elşad Mirbəşiroğlu deyib. Onun sözlərinə görə, Ermənistanın işğalçılıq siyasətinə göz yumulurdu: "Bununla da Ermənistana dəstək nümayiş etdirilirdi.

Hazırda da vəziyyət eyni cürdür. Azərbaycan öz torpaqlarını öz gücü ilə işğaldan azad etdi. Hazırda həmin ərazilərdə bərpa-quruculuq işlərini həyata keçiririk. Regionda sülhün və təhlükəsizliyin qorunması üçün də zəmin hazırlamışıq. Lakin yenə də baş verənlərin mahiyyəti məqsədli şəkildə təhrif olunur. Ermənistandan istifadə edilərək, Cənubi Qafqazda gərginlik saxlanılır. Bu gərginlik isə Qərbə imkan verir ki, regionda öz mövcudluğunu saxlasın.Avropa ölkələrində və beynəlxalq təşkilatlarda dəqiq təsəvvürlər mövcuddur ki, Azərbaycan ərazisində müxtəlif xalqların nümayəndələri tam təhlükəsiz şəraitdə yaşayırlar. Yəni, Azərbaycanda ermənilərin hüquq və təhlükəsizliyi ilə bağlı heç bir problem olmayıb, bundan sonra da olmayacaq. Sadəcə olaraq, Azərbaycan-Ermənistan münasibətlərində açıq məsələlərin qalması Avropa dövlətlərinin maraq dairəsindədir".

**Səbinə**

# Təhsil eksperti: "Bu ixtisasları seçsəniz..."

Diplom xətrinə perspektivsiz ixtisas oxumaq, yoxsa lazımlı peşəyə yiyələnmək?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*





Düşünün, son 100 ildə baş verən texnoloji inkişaf, bütövlükdə bütün tarixi hadisələrdən daha sürətli baş verib. Texnologiya inanılmaz sürətlə irəliləyir, eyni zamanda, bir çox peşənin irəliləməsinin qarşısını alır. Üstəlik, bu üstələməyə təkcə texnologiya deyil, eyni zamanda, elmi, sosial, mədəni, ekoloji və iqtisadi inkişaflar da çox təsir edir. Ona görə peşə seçərkən, ixtisas axtarışında olarkən bu xırdalıqları unutmamaq, dövr ilə ayaqlaşan ixtisas seçmək lazımdır.

Tanınmış təhsil eksperti Ramin Nurəliyev bu barədə abituriyentlərə qızıl məsləhətlər toplusu hazırlayıb. Yaxın günlərdə abituriyentlərin ixtisas seçimi prosesinə start veriləcək, ona görə ekspertin məsləhətlərini oxumalarında və əməl etmələrində fayda var.

Ekspert deyir: "Abituriyentlər üçün günümüzün tələbatlı ixtisasları ilə, əmək bazarında iş imkanları məhdud olan ixtisaslar var. İlk növbədə qeyd edim ki, bütün ixtisaslar lazımlıdır və hər bir ixtisasın mütəxəssisi, ixtisasını mükəmməl bilən həyatda öz mövqeyini lazımi şəkildə tutur. Mən ixtisas qrupları üzrə əmək bazarında çox tələbatlı olan ixtisaslar və iş imkanları məhdud olan ixtisaslar barədə danışacam. Əslində, bu ixtisaslar tələbata görə illərdir qəbul imtahanlarında keçid ballarına görə formalaşaraq özünü büruzə verib. Məlumdur ki, yüksək ballı ixtisaslar tələbatlı, zəif ballı ixtisaslar da az tələbatı olan ixtisaslardır." Ramin Nurəliyev ixtisasları hər ixtisas qrupu üzrə ayrılıqda şərh edib.

### 1-ci ixtisas qrupu üzrə:

"Birinci qrup üzrə tələbatlı ixtisaslar kompüter meyilli ixtisaslar ki, buraya informasiya texnologiyaları, informasiya təhlükəsizliyi, kompüter mühəndisliyi və Rİ altqrupuna aid digər ixtisaslar daxildir. Bununla yanaşı qida mühəndisliyi, nəqliyyatda logistika ixtisası da son zamanlar tərcih edilən ixtisaslardan hesab olunur.

Bu qrupda zəif tələbatlı ixtisaslar xüsusilə də RK altqrupundadir. Buraya daha çox geologiya və geofizika, geomatika və geodeziya, materiallar mühəndisliyi, maşın mühəndisliyi, mühəndis fizikası kimi ixtisaslardır ki, bu ixtisaslar əmək bazarında tələbatlı görünmür və ya az tələbatlıdır. Bununla yanaşı, aqrar ixtisaslar və el arasında deyilən 150 ballıq ixtisaslar da az tələbatlı ixtisaslar sırasına daxildir və yüksək bal toplayan abituriyentlərin seçimi olmur. Elə ixtisaslar da vardır ki, bu ixtisasların adları cazibəli göründüyü üçün abituriyentlər seçim edir, lakin təhsil aldığı müddətdə peşman olurlar.

Bu ixtisaslara cihaz mühəndisliyi, mexatronika və robototexnika kimi ixtisasları aid etmək olar. Etiraf etmək lazımdır ki, mexatronika və robototexnika ixtisası müasir dövrün ixtisasidir, bunun üçün universitetlərdə kifayət qədər bu sahənin peşəkarı olan müəllimlər və lazımlı lobirotoriyalar tələb olunur. Əfsuslar olsun ki, bizim bir çox universitetlərdə bu imkanlar yetərincə deyil. Məhz buna görə də bu ixtisası seçim edən tələbələr sonradan bu ixtisas üzrə kifayət qədər biliyin mənimsənilmədiyini ifadə edirlər.

İctimaiyyətin çox da məlumatlı olmadığı, bitirdikdən sonra bacarıqlı tələbələrə iş imkanları verən 1-ci qrupda hərbi-sənaye ixtisasları da var ki, bunun da gələcəkdə çox inkişaf edəcəyinin qənaətindəyəm. Artıq Azərbaycan hərbi-sənaye istiqamətində sürətlə inkişaf edir. Öz silah və müdafiə xarakterli müasir hərbi texnikaların istehsalını həyata keçirir. Bu istiqamətdə fəaliyyətin genişlənməsi bu sektora olan marağın böyüməsinə səbəb olacaq.

### 2-ci ixtisas qrupu üzrə:

Bu qrupda əsas tələbatlı ixtisaslar maliyyə, iqtisadiyyat, beynəlxalq ticarət və logistika, biznesin idarə edilməsi, marketinq kimi iqtisad yönümlü ixtisaslardır. Az tələbatlı və iş imkanları zəif ola ixtisaslar sırasında sosiologiya, hidrometeorologiyanı aid etmək olar. Turizm ixtisasları əvvəllər az tələbatlı olsa da son dövrdə bu ixtisasa maraq artmaqdadır. Qarabağ iqtisadi zonasının azad olunması ilə yanaşı qərb rayonlarımızda sürətlə quruculuq işlərinin görülməsi və gələcəkdə bu bölgənin turizm sektoruna verəcəyi töhfə danılmazdır.

### 3-cu ixtisas qrupu üzrə:

"Hüquqşünaslıq, beynəlxalq münasibətlər, dövlət və ictimai münasibətlər, tərcümə və pedoqoji ixtisaslar daha çox tələbatlı ixtisaslar hesab olunur. Bununla yanaşı, jurnalistika ixtisası üzrə tədris ingilis dilinə daha çox üstünlük verilir.

Az tələbatlı ixtisaslar kimi fəlsəfə, politologiya və incəsənət ixtisaslarını nümunə vermək olar. Filologiya ixtisasına da getdikcə marağın azalması müşahidə oluna bilər. Burada Elm və Təhsil Nazirliyinin bu ixtisası MİQ imtahanında seçimə buraxmaması əsas səbəb kimi görünür."

### 4-cü ixtisas qrupu üzrə:

"Bu qrupda tibb ixtisasları və psixologiya daha çox tərcih edilən ixtisaslardır. Bununla yanaşı, son zamanlar biologiya ixtisasına da maraq artmaqdadır, buna səbəb kimi xaricdə bu ixtisas üzrə genetika, mikrobiologiya, biotexnologiya, baktreilogiya kimi sahələr üzrə magistr imkanlarını göstərmək mümkündür. Bu qrupda Su bioehtiyatları və akvakultura, baytarlıq, bitki mühafizəsi, bağçılıq və tərəvəzçilik kimi ixtisaslar əmək bazarında dövrün tələblərinə kifayət qədər cavab verməzdiyi hesab olunur.

Bununla yanaşı, bütün qruplar üzrə müəllimlik və pedoqoji ixtisaslar da çox müraciət olunan ixtisaslar içərisində qeyd etmək istərdim. Xüsusilə də, orta səviyyədə bal toplayan abituriyentlər ilə yanaşı yüksək bal toplayan bir neçə abituriyentlərin də müəllimlik ixtisaslarını seçim etdiyi müşahidə olunur."



İxtisas seçərkən valideynlərin müdaxiləsi məsələsinə də diqqət çəkmək istərdik. Xüsusilə, dövrümüzdə valideynlər uşaqlarının gəlirli peşəyə yiyələnməsinin tərəfdarıdır. Abituriyentin istəyi, marağı olan sahə bu məsələdə arxa plana atılır. Nəticədə, ölkəmiz diplomlu, amma peşəsini sevməyən, o sahədə işləməyən gənclərlə dolub-daşır.

***Lalə Mehralı***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




# Məktəbli formalarının tez-tez dəyişdirilməsində məqsəd nədir?

## *EKSPERT DANIŞDI*



"Ölkəmizdə məktəbli forması ənənəsi kütləvi şəkildə sovetlər dövründə tətbiq edilməyə başlayıb. Nazirlər Kabinetinin 2011-ci il tarixli qərarı ilə təsdiq edilən Ümumtəhsil Məktəblərinin Nümunəvi Nizamnaməsinə əsasən, orta təhsil alanların geyim forması hər məktəbin öz nizamnaməsi ilə müəyyən olunurdu. Yəni, hər məktəb öz şagirdləri üçün vahid geyim forması tətbiq edə bilərdi. Həmin prosesə nəzarət də elə məktəbin özü tərəfindən həyata keçirilirdi. Amma Prezident İlham Əliyevin imzaladığı "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanunun tətbiqi barədə" fərmana əsasən, dövlət ümumi təhsil müəssisəsində təhsilalanlar üçün vahid geyim formaları tətbiq edilməlidir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Onun sözlərinə görə, Təhsil Nazirliyi tərəfindən 4-5 vahid məktəbli geyiminin formalarının təsdiqlənəcəy və təhsil müəssisələrinin yalnız bu geyimlərdən istifadə edə biləcəklər:

"Ümumtəhsil məktəblərində şagirdlər üçün vahid formada məktəbli geyiminin tətbiqi uzun illərdən bəri təhsil sistemində mütərəqqi ənənələrdən biri olmuşdur. Maddi imkanlarından asılı olmayaraq, bütün şagirdlərin məktəbə eyni geyimdə gəlməsi sosial bərabərliyin real nümunələrindən biri kimi həmişə bəyənilib, məktəblilərin mənəvi tərbiyəsinə, təlimin demokratik əsaslarda qurulmasına müsbət təsir göstərib. Respublikamızın, habelə yaxın və uzaq xarici ölkələrin bu sahədəki təcrübəsi göstərir ki, məktəbli forması təhsil aldıqları müəssisədə, eyni zamanda, ictimai həyatda şagirdlərin öz fəaliyyətlərinə və davranışlarına məsuliyyətlə yanaşmalarında, cəmiyyətdə özlərinə qarşı hörmət və rəğbət hissi oyadılmasında, bütövlükdə məktəbin nüfuzunun qaldırılmasında əhəmiyyətli rol oynayır.

Bu gün ölkəmizdə fəaliyyət göstərən 4472 orta məktəbində təhsil alan 1.6 milyon şagirdin hər biri vahid məktəbli forması ilə tədris prosesinin iştirakçısına çevrilir.

Amma bu, o demək deyil ki, bütün məktəblər eyni məktəbli formasında istifadə etməlidir. Hər bir məktəbin pedaqoji şurası qərar qəbul edib təklif edilmiş 4-5 layihədən istədikləri dizaynda forma müəyyən edə bilərlər. Yəni, ayrı-ayrı məktəblər üçün material və dizayn baxımından fərqli geyim formasının mövcud olması mümkündür və bu barədə məhdudiyyət yoxdur. Bir vacib məqamı qeyd edim ki, məktəbli formasının tətbiqi barədə tədbirlər hər bir məktəb üzrə bilavasitə valideyn komitəsinin, məktəb-valideyn assosiasiyasının, şagird özünüidarə təşkilatının iştirakı ilə müzakirə edilib müvafiq qərar qəbul olunduqdan sonra qəbul edilə bilər. Heç bir məktəb rəhbəri bununla bağlı təkbaşına qərar qəbul edə bilməz.

Rayonlarda məktəbli formasından istifadə ilə bağlı müəyyən çatışmazlıqlar var. Bu da hava şəraiti ilə bağlıdır. Belə ki, soyuq havalarda məktəbli formaları nazik olduğu üçün uşaqlar üşüyürlər, onlara soyuq olur. Ona görə də daha çox qış aylarında bu hal baş verir.

Hesab edirəm ki, məktəbli formaları iqlim və hava şəraitinə görə təşkil olunsa, ondan istifadə ilə bağlı problem olmaz.

Digər tərəfdən isə geyimlərin tikilməsi ilə Bakı Tikiş Evi (BTE) məşğul olmamalıdır. Bu keyfiyyətə ciddi təsir göstərə və rəqabət mühitini aşağı sala bilər. Ona görə də təhsil nazirliyi 4-5 eskizi məyyən edib ictimaiyyətə təqdim etməli və məktəblərə göndərməlidir. Onun standartlara uyğun olaraq tikilməsini valideynlər ya fərdi qaydada, ya kollektiv şəkildə ya da məktəblə birlikdə həyata keçirməlidirlər.

Nazirlər Kabinetinin 2011-ci il tarixli qərarı ilə təsdiq edilən Ümumtəhsil Məktəblərinin Nümunəvi Nizamnaməsinə əsasən, orta təhsil alanların geyim forması hər məktəbin öz nizamnaməsi ilə müəyyən olunur. Yəni, hər məktəb öz şagirdləri üçün vahid geyim forması tətbiq edə bilər. Həmin prosesə nəzarət də elə məktəbin özü tərəfindən həyata keçirilir.

Düzdür, hazırda respublikanın demək olar, 4500-dən çox orta təhsil müəssisələrində şagirdlər məktəbə vahid formada gedirlər. Etiraf etməliyəm ki, bu, təhsilin keyfiyyətinə müsbət təsir göstərməklə bərabər, həm də nizam-intizamın yaxşılaşmasına gətirib çıxarır. Amma bir məqamı xüsusi qeyd edim ki, hər bir məktəbin pedaqoji şurası öncədən müəyyən olunan dizayn və məktəbli formalarının etiketlərini məktəb kollektivi ilə müzakirəyə çıxarır. Məktəb üçün uyğun hesab olunan dizaynda qəbul edilən məktəbli forması həmin tədris ili üçün vahid forma kimi qəbul edilir. Hətta bəzi orta ümumtəhsil məktəblərimiz ibtidai və yuxarı sinif şagirdləri üçün fərqli məktəbli formaları tətbiq edirlər. Düzdür, bəzi hallarda məktəb direktorları tikiş evləri ilə qeyri-rəsmi razılıq əldə edir ki, bütün şagirdləri ancaq o satış dükanından almağa yönəldir. Amma qeyd edim ki, hər valideyn məktəb tərəfindən təsdiq edilmiş formanın eskizini əldə edərək övladının geyimini istədiyi yerdə tikdirə bilər. Amma formanın təsdiq edilən standartlara uyğun olması şərti ilə. Yəni, hər bir valideyn məktəb tərəfindən qəbul edilmiş standartlara uyğun olan formanı özü tikdirə bilər. Bu, qanunla qadağan olunmayıb. Əgər valideynlərə tikiş evləri tərəfindən təklif edilən geyimlər baha gələrsə, bu zaman özləri bu məsələni həll edə bilərlər".

# Aliment alan şəxs sosial yardım ala bilər?

## *VƏKİL AÇIQLADI*



"Məhkəmə qətnaməsinə əsasən, aliment alan şəxslərin təbii ki, sosial müavinət almaq hüquqları var". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. Onun sözlərinə görə, Azərbaycan Respublikasının vətəndaşları "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası qanunu ilə müəyyən olunmuş şərtlərlə və qaydada aylıq və birdəfəlik müavinət almaq hüququna malikdirlər: "Bu Qanunla aşağıdakı müavinətlər təyin edilə bilər:

- aylıq müavinətlər;
- dövlət qulluqçularına ömürlük müavinət;
- yaşa görə müavinət;
- əlilliyə görə müavinət;
- ailə başçısını itirməyə görə müavinət;
- müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət;
- 3 yaşınadək uşağa qulluğa görə müavinət; müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına müavinət;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət;
- 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət; vəfat etmiş Azərbaycan Respublikasının keçmiş Prezidentinin arvadına (ərinə) və ya öhdəsində olan uşağına "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən ödənilən müavinət;
- beşdən çox uşağı olan qadınlara müavinət;
- övladlığa götürülən uşağa, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə müavinət;
- himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət.

Bu müavinətlərdən yalnız biri təyin edilə bilər. Şəxsin sosial müavinət almaq hüququnun olması hələ ona belə müavinətin təyin olunacağı anlamına gəlmir. Bunun üçün vətəndaş zəruri sənədlərlə müvafiq dövlət orqanlarına ( Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, "DOST" mərkəzləri) müraciət etməli, əgər onun yuxarıda sadalanan hər hansı bir müavinəti almaq üçün hüquqi əsas varsa, bu zaman ona sosial müavinət təyin edilə bilər".

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**